RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 134 (8727) CÜMƏ AXŞAMI, 1 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Böyük Zəfər 103 illik fəaliyyət tarixinin ən möhtəşəm səhifələrindəndir

## Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Qaradağ rayonunun Ələt, Korgöz və Lökbatan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,1 milyon (iki milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2021-ci il*

## "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2021-ci il mayın 20-də Moskva şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 iyun 2021-ci il*

## Azərbaycan polisi indi üç cəbhədə qəhrəmanlıq, vətənpərvərlik və məsuliyyət missiyası nümayiş etdirir

**İstiqlalımızın polad sipərlərindən, sabitliyin və təhlükəsiz həyatın əsas təminatçılarından olan Azərbaycan polisi fəaliyyətinin 103-cü ildönümünə üç cəbhədə apardığı mübarizədə qazandığı uğurlarla qədəm qoyur. Böyük Zəfərə verdiyi töhfələri, cinayətkarlığa qarşı mübarizədə davamlı nailiyyətləri və pandemiya dövründəki fədakarlıqları daxili işlər orqanlarının peşə bayramında qürur duyacağı məqamlardır.**

### Şanlı tarix

Tarixinin ən qüdrətli, zəfərli dövrünü yaşayan Azərbaycan iqtisadi-sosial inkişaf modeli ilə yanaşı, həm də təhlükəsizliyin və sabitliyin etibarlı təminatı baxımından dünyada mükəmməl nümunələrdən birini yaradıb. Transmilli mütəşəkkil cinayətkarlığın, o cümlədən beynəlxalq terrorçuluğun sərhəd tanımadığı, kriminogen durumun qlobal miqyasda kəskinləşdiyi müasir dövrdə ölkəmiz, Prezidentin təbirincə desək, sabitlik adasına çevrilib. Bu nailiyyətin əldə olunmasında, şübhəsiz ki, daxili işlər orqanlarının da əzmkar fəaliyyəti qeyd edilməlidir.

Xalq Cümhuriyyəti hökumətinin qərarına əsasən, 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasında ilk milli polis orqanlarının yaradılması ilə Azərbaycan polisi çox çətin tarixi sınaqlar dövründə şərəfli missiyasının icrasına başladı. 103 yaşlı daxili işlər orqanları ictimai asayişin qorunmasında, dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında, torpaqlarımızın müdafiəsində, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə və digər istiqamətlərdə daim müstəsna xidmətlər göstərib. Xaosdan qurtuluşa keçidin bütün keşməkeşli, ziddiyyətli məqamları, ən əsası isə dövlətçilik təəssübü, mübarizliyi və fədakarlığı milli polisimizin fəaliyyət salnaməsini təşkil edir. Bu gün ictimai sabitliyin təminatına, kriminogen duruma nəzarətə görə Azərbaycanın MDB və Şərqi Avropa məkanında yüksək nəticələrə sahib olması faktı da, heç şübhəsiz, bu tarixin şərəfli səhifələrindəndir.

Daxili işlər orqanlarının fəaliyyətinin hər bir dövrü zəngin və məsuliyyətli tarixi, Vətən və xalq qarşısında vəzifə öhdəliklərinin layiqincə doğrulmasını real əks etdirir. Bu strukturun fəaliyyətinin ən şanlı, uğurlu mərhələsi isə Heydər Əliyevlə, onun bu gün də davam edən ideyaları ilə birbaşa bağlıdır. Azərbaycan polisinin fəaliyyətində köklü islahatların yarandığı ilk "qızıl dövr" Ulu Öndərin ötən əsrin 70-80-ci illərdəki rəhbərliyi altında gerçəkləşdi. Həmçinin 1993-cü ilin 15 iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev cəmiyyətin hava və su kimi ehtiyac duyduğu sabitliyi bərqərar etmək üçün daxili işlər orqanlarına arxalandı.







Azərbaycan polisi xalqa layiqli xidməti ilə dövlət quruculuğu prosesində öz möhkəm, sarsılmaz, şərəfli yerini tutdu.

İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə isə Daxili İşlər Nazirliyi fəaliyyətini daha da təkmilləşdirmiş, işini müasir dünyanın çağırışlarına uyğun qurmuşdur. Ən mühümü daxili işlər orqanlarındakı mənəvi ruh sağlamlığı, şəxsi heyətin Vətən və xalq qarşısındakı tarixi məsuliyyət hissi daha da yüksəlmişdir.

### Vətən savaşının igid fədailəri

Xalqımızın misilsiz bayramına, böyük iftixarına çevrilən Azərbaycanın böyük Zəfəri daxili işlər orqanlarının əməkdaşları üçün də müqəddəs dəyər kimi qəbul edilir və şəxsi heyət builki peşə bayramını həmişəkindən daha coşqulu, inamlı keçirir.

Vətən savaşındakı Qələbənin qazanılmasında bu şəxsi heyətin də əlahiddə töhfələri oldu. Daxili işlər orqanları savaşın ilk dəqiqələrindən etibarən Ali Baş Komandanın müsəlləh əsgərləri kimi vəzifə borclarını şərəflə, məsuliyyətlə icra etməyə başladılar.

***Ardı 3-cü səh.***

## Qarabağ Dirçəliş Fondunun "Karabakh.Center" layihəsinin təqdimatı olub

İyunun 30-da Qarabağ Dirçəliş Fondunun "Karabakh.Center" layihəsinin təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə erməni vandallarının Qarabağda törətdikləri dağıntıları özündə əks etdirən fotosərgiyə baxıblar. Sərgiyə baxış zamanı bildirilib ki, burada nümayiş etdirilən fotoların əksəriyyəti AZƏRTAC-ın fotomüxbirləri tərəfindən çəkilib.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev qeyd edib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz düşmən üzərində Qələbə qazanaraq 30 il işğal altında olan torpaqları azad edib. "İşğaldan azad edilmiş Qarabağda dağıntıların miqdarı həddindən artıq böyükdür. Bizim "Qarabağ Mərkəzi" adlanan bu layihə də dünya ictimaiyyətinə bu zərərin miqyasını çatdırmaq üçün yaradılıb", - deyə R.Hacıyev vurğulayıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin qəbul etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də nəzərdə tutulan beş əsas prioritetdən biri də işğaldan azad olunmuş ərazilərə böyük qayıdışdır. Azərbaycan Prezidentinin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə təcavüzkar ölkə üzərində tam üstünlüyümüzün sübutu olmaqla yanaşı, həm də Azərbaycan xalqının bütün dünyaya özünəməxsus mesajıdır.

***Ardı 4-cü səh.***

## Nəqliyyat kommunikasiyalarının açılması Qarabağda vəziyyətin hərtərəfli sabitləşməsinə xidmət edəcək

"Rusiya əmindir ki, bölgədəki ölkələrin və qonşuların, o cümlədən Türkiyə və Rusiyanın iştirakı ilə nəqliyyat kommunikasiyalarının açılması, Zaqafqaziyada çoxşaxəli iqtisadi əməkdaşlığın təşviqi üzrə səylər Qarabağda vəziyyətin hərtərəfli sabitləşməsinə xidmət edəcək".

AZƏRTAC xəbər verir ki, bu fikri Rusiyanın xarici işlər naziri Sergey Lavrov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə danışıqların yekunlarına dair mətbuat konfransında bildirib.

"Cənubi Qafqazdakı vəziyyəti, Qarabağ münaqişəsinin nizamlanması istiqamətində keçən il noyabrın 9-da və bu il yanvarın 11-də əldə olunan razılaşmaları ətraflı müzakirə etdik. Bakı və Yerevana inam tədbirlərinin gücləndirilməsi də daxil olmaqla, münasibətlərin normallaşdırılması üzrə praktik məsələlərdə kömək etmək məqsədilə səylərimizi əlaqələndirmək üçün razılığa gəldik. Biz atəşin dayandırılması və bütün hərbi əməliyyatlara nəzarət edilməsi üzrə Azərbaycanın Ağdam rayonunda yaradılan Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətindən məmnunuq", - deyə S.Lavrov bildirib.

O, danışıqlar zamanı Rusiya ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq məsələlərinin də müzakirə olunduğunu qeyd edib və ticarət-iqtisadi əməkdaşlıq üzrə Rusiya-Türkiyə Hökumətlərarası Komissiyasının 17-ci iclasının iyulun 30-da Moskvada keçiriləcəyini xatırladıb.

◆ **Jurnalist araşdırması**

## Min-min doğulacağıq!..

### Azərbaycanda demoqrafik siyasətlə sosial siyasət yanaşıdır

**Sosial siyasətin bir hissəsi olan demoqrafik siyasət ölkəmizdə xüsusi önəm daşıyır. Demoqrafik siyasət əhalinin say və struktur dinamikası meyillərini dəyişdirmək və ya saxlamaq üçün əhalinin təkrar istehsalı prosesinin tənzimlənməsi sahəsində dövlət orqanlarının və sosial institutların məqsədyönlü fəaliyyətidir.**

Başqa sözlə, bu, doğum, ölüm, nikah, boşanma proseslərinə və əhalinin yaş strukturuna təsir edən siyasətdir.

Demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq və demoqrafik vəziyyəti yaxşılaşdırmaq məqsədilə 1999-cu ildə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" qəbul edilmişdir. Bu sənədin əsasında ölkə Prezidentinin 11 noyabr 2004-cü il tarixli sərəncamı ilə "Demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" təsdiq olunmuşdur. 17 il əvvəl həyata keçirilməyə başlayan, Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının da bir nailiyyəti məhz odur ki, bu gün ölkəmiz demoqrafik problemlərdən uzaqdır. Demoqrafik vəziyyət isə istənilən ölkədə sosial, iqtisadi, siyasi, ekoloji vəziyyətlə birbaşa bağlıdır. Demoqrafiya sosial-iqtisadi vəziyyətin göstəricilərindən biridir.

***Ardı 6-cı səh.***

## Təkcə təbiət üçün deyil, özümüz üçün də faydalı qadağa

### Bu gündən Azərbaycanda plastik qabların istehsalına və satışına icazə verilmir



***Bax: səh. 6***

## Tarif tənzimlənməsi əhalinin ailə büdcəsinə mənfi təsir göstərməyəcək

### Bunun nəticəsində əldə olunan vəsait vətəndaşların sosial rifahının daha da yüksəldilməsinə yönəldiləcək

Məlum olduğu kimi, Tarif Şurasının bu il iyunun 30-da keçirilən növbəti iclasında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) təbii qaz üzrə tarif tənzimlənməsinə dair müraciətinə baxılıb və müvafiq qərarlar qəbul edilib.

Əvvəla, qeyd edək ki, təbii qaz üzrə tarif tənzimlənməsi əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərməyəcək. Kənd təsərrüfatı və sənaye məhsullarının qiymətləri sabit qalacaq. Çünki sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi dəyişdirilməyib və hazırkı 20 qəpik səviyyəsində saxlanılıb.

Təbii qaz üzrə tarif tənzimlənməsi elektrik enerjisinin qiymətinə də təsir göstərməyəcək. Tarif dəyişikliyi, eləcə də əhalinin 51 faizinin orta aylıq xərcinə təsir etməyəcək. Belə ki, sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi dəyişdirilməyib. Üstəlik, "Azəristiliktəchizat" ASC və yaşayış binalarının məhəllə qazanxanaları üzrə təbii qaz tarifi 20 qəpikdən 13 qəpiyə endirilib. Ölkədə aparılan sosialyönümlü siyasət nəzərə alınmaqla və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi məqsədilə əhali üzrə təbii qazın illik istehlak həcminin 1200 kubmetrədək (1200 kubmetr daxil) olan hissəsi üçün tarif dəyişdirilməyib və hazırkı 1 kubmetr üçün 10 qəpik səviyyəsində saxlanılıb. İllik istehlak həcminin 1200-2500 kubmetr (2500 kubmetr daxil) olan hissəsi üçün 20 qəpik, 2500 kubmetrdən çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib.

Bir sıra digər dəyişikliklər də olub. Məsələn, elektrik enerjisi üzrə artıma yol verməmək üçün elektrik stansiyalarına verilən təbii qazın tarifi cəmi 1 qəpik artırılıb və 12 qəpikdən 13 qəpiyə dəyişdirilib.

***Ardı 5-ci səh.***

# Milli Məclisin Sədri Sahibə Qafarova Macarıstanın Baş naziri Viktor Orbanla görüşüb

**İyunun 29-da Milli Məclisin Sədri Sahibə Qafarova Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri Viktor Orbanla görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Baş nazir Macarıstana rəsmi səfərə gəldiyi üçün Sahibə Qafarovaya və Azərbaycan nümayəndə heyətinə təşəkkürünü bildirib. O deyib ki, Azərbaycandan gələn nümayəndə heyətləri hər zaman Macarıstan xalqı və dövləti üçün xüsusi qonaqlardır. Baş nazir qarşılıqlı səfərlərin əhəmiyyətli olduğunu vurğulayıb və əmin olduğunu bildirib ki, bu səfər ölkələrimiz arasındakı münasibətlərin inkişafına öz töhfəsini verəcək.

İki ölkənin qanunverici orqanları arasında münasibətlərin də inkişaf etdiyini bildirən Viktor Orban dostluq qruplarının fəaliyyətini təqdir edib. Baş nazir bildirib ki, Macarıstan dost ölkə olan Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verir. Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

Macarıstanla Azərbaycan arasında enerji sahəsində də geniş əməkdaşlıqdan danışan Viktor Orban qeyd edib ki, Azərbaycan enerji təhlükəsizliyinin təmin olunmasında bizim üçün əvəzedilməz rol oynayır.

Səmimi qəbul üçün təşəkkürünü ifadə edən Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova Prezident İlham Əliyevin salamlarını Baş nazirə çatdırıb. Spiker Milli Məclisin Sədri kimi Macarıstana ilk rəsmi səfərindən məmnunluğunu ifadə edib. İki xalqın ortaq tarixi köklərə malik olduğunu bildirən Sahibə Qafarova qeyd edib ki, çoxsaylı dəyərlərimiz arasında oxşarlıqlar mövcuddur. Bu mənada ailə dəyərlərimizi xüsusi qeyd edə bilərik. Sədr bildirib ki, Azərbaycan onun müstəqilliyini ilk tanıyan ölkələrdən biri olan Macarıstanla hərtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Dövlət müstəqilliyimizin bərpasından sonra iki ölkə arasında siyasi əlaqələr yeni səviyyəyə yüksəlib. Şübhəsiz ki, münasibətlərimizin bu səviyyəyə çatmasında Prezident İlham Əliyevlə sizin aranızdakı şəxsi münasibətlər də böyük rol oynayıb.

Sahibə Qafarova deyib ki, ölkələrimiz arasında əməkdaşlığa dair imzalanmış hüquqi sənədlər mühüm əhəmiyyət daşıyır. Son dövrlərdə Azərbaycanla Macarıstan arasında ticarət dövriyyəsinə dair göstəriciləri diqqətə çatdıran Spiker S.Qafarova vurğulayıb ki, ticarət dövriyyəsini artırmaq üçün real potensial daha böyükdür. Sədr qeyd edib ki, Azərbaycan Cənubi Qafqazın böyük bir iqtisadi mərkəzidir. Azərbaycan enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaşdır və Avropaya enerji təchizatı marşrutlarının şaxələndirilməsinin təmin edilməsində mühüm rol oynayır. Bu yaxınlarda həyata keçirilmiş Trans-Anadolu Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələri bu baxımdan böyük əhəmiyyət daşıyır. Ölkələrimiz arasında yüksəksəviyyəli humanitar əlaqələrin mövcudluğundan danışan Spiker Heydər Əliyev Fondunun dəstəyi ilə Macarıstanda həyata keçirilmiş layihələri qeyd edib. Bu sahədəki xidmətlərinə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Macarıstanın Ali mükafatı ilə təltif olunmasını xüsusi vurğulayıb.

İki ölkə arasındakı parlamentlərarası əlaqələrə toxunan Sahibə Qafarova diqqətə çatdırıb ki, həm Azərbaycan, həm də Macarıstan parlamentlərində qarşılıqlı parlament dostluq qrupları fəaliyyət göstərir. Deputatlarımız beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq edirlər. Milli Məclisin Sədri qarşıdakı dövrlərdə də tərəflərin bu fəaliyyətə sadiq qalacağına əminliyini ifadə edib. Sədr qeyd edib ki, Macarıstanın həm hökumət, həm də parlament səviyyəsində Türk dünyası ilə iş birliyinin artmasını təşviq etməsi və Macarıstan parlamentinin Türkdilli Ölkələrin Parlament Assambleyasında - TÜRKPA-da müşahidəçi statusuna sahib olması çox sevindiricidir.

Milli Məclisin Sədri Baş nazir Viktor Orbanın diqqətinə çatdırıb ki, 2020-ci ildə tarixin sınağından qalib çıxan Azərbaycan 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanaraq torpaqlarını Ermənistanın işğalından azad edib. Spiker 44 günlük Vətən müharibəsi dövründə ədalətli mövqe nümayiş etdirdiyinə görə Macarıstan xalqına və dövlətinə özünün və Milli Məclisin adından minnətdarlığını bildirib. Spiker bildirib ki, torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağda bərpa və quruculuq işləri başlayıb. Lakin Ermənistan bu işə mane olur, minalanmış ərazilərin tam xəritəsini vermir, təxribatlar törədərək sərhədlərin delimitasiyasına və demarkasiyasına əngəl törədir, işğaldan azad olunmuş ərazilərimizə terroristlərin keçməsinə şərait yaradır. Ermənistanın minalanmış ərazilərin xəritələrini verməməsinə görə hərbi və mülki şəxslər, jurnalistlər həlak olur və ya zərər çəkir.

Sahibə Qafarova ərazilərin minalardan təmizlənməsi işində ANAMA-nın fəaliyyətinə Macarıstan tərəfindən verilən dəstəyə görə minnətdarlıq edib və bunu Macarıstanın dost münasibəti kimi dəyərləndirib.

Baş nazir Viktor Orban salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib. Sonra görüşdə iki ölkə arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunub, tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin nümayəndə heyətinin Budapeştdə Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupu ilə görüşü olub





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Budapeştdə səfərdə olan parlament nümayəndə heyəti iyunun 29-da Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədrini və nümayəndə heyətinin üzvlərini salamlayan Macarıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Attila Tilki bu səfərin parlamentlərarası münasibətlərin inkişafına dəyərli töhfə verəcəyindən əminliyini bildirib. Diqqətə çatdırıb ki, parlamentlər arasındakı münasibətlər dövlətlərarası əlaqələrimizin daha da möhkəmlənməsində mühüm rol oynayır. Bu sahədə parlamentlərarası dostluq qrupları xüsusi əhəmiyyətə malikdir. Pandemiya bitdikdən sonra qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyindən danışan dostluq qrupunun rəhbəri hər iki ölkə deputatlarının beynəlxalq təşkilatlarda yaxın əməkdaşlığından, bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə edib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Macarıstanla mövcud parlamentlərarası əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Milli Məclisdə Macarıstanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupu fəaliyyət göstərir. İnanıram ki, deputatlarımız bu əməkdaşlıq ənənəsini beynəlxalq parlament təşkilatları çərçivəsində də bundan sonra da davam etdirəcəklər. S.Qafarova Macarıstanın müşahidəçi statusuna sahib olduğu TÜRKPA - parlament ölçüsü də daxil olmaqla, Türk dünyası ilə artan əməkdaşlıq tendensiyasından məmnunluğunu bildirib. Qeyd edib ki, beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərimiz arasındakı qarşılıqlı dəstək və tərəfdaşlıq ölkələrimizin mövqelərinin möhkəmlənməsinə xidmət etməyə davam edəcək.

Sahibə Qafarova Macarıstan hökumətinə, macarıstanlı deputatlara 44 günlük Vətən müharibəsi dövrü də daxil olmaqla, Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiklərinə görə təşəkkürünü bildirib. Müharibənin artıq başa çatdığını diqqətə çatdıran Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma proqramına başlayıb. Tərəflər 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla bütün məsələləri həll etmək barədə razılığa gəlsələr də, Ermənistan azad olunmuş torpaqlarımızdakı minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Müharibə bitdikdən sonra mina partlayışı nəticəsində yaralanan, həlak olan jurnalistlər, hərbi qulluqçular və mülki şəxslər var.

Sonra görüşdə dostluq qruplarının üzvləri - Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, komitə sədri Ziyafət Əsgərov, deputatlar - Kamilə Əliyeva, Asim Mollazadə, Elman Nəsirov, Macarıstan tərəfindən Pal Zsigmond-Barna, Csaba Gyüre, Laszlo B. Nagy, Gergely Farkas və Zsolt Csenger çıxış edərək ölkələrimiz arasında münasibətlərin mövcud vəziyyəti, parlamentlər arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında rolu və digər məsələlər barədə fikirlərini bölüşüblər.

# Azərbaycanın parlament nümayəndə heyəti Macarıstanda Əlil Uşaqlar üçün Reabilitasiya Mərkəzini ziyarət edib









Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan parlamentinin nümayəndə heyəti Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkədə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Əlil Uşaqlar üçün Laszlo Batyani İnstitutunun Reabilitasiya Mərkəzini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan parlament nümayəndə heyətini mərkəzin direktoru Gyorgi İnotay qarşılayıb. Milli Məclisin Sədrinə məlumat verilib ki, mərkəz 1982-ci ildə Macarıstan katolik kilsəsi tərəfindən yaradılıb. Mərkəzin əsas missiyası görmə, hərəkət, ünsiyyət qabiliyyətləri pozulmuş və digər fiziki imkanları məhdud olan uşaqlara yardım göstərməkdən ibarət idi. Ümumi sahəsi 2800 kvadratmetr olan müəssisə 1994-cü ildə əsaslı təmir edilib. Heydər Əliyev Fondu çoxillik xeyriyyə missiyasını davam etdirərək mərkəz üçün yeni korpus tikilməsi təşəbbüsü ilə çıxış edib. 2015-ci ildə tikinti başa çatdırılandan sonra həmin korpus digər binalar kompleksi ilə birləşdirilib. Otuz çarpayılıq beşmərtəbəli yataqxana korpusunun ümumi sahəsi 1385,26 kvadratmetrdir. Binada dərs, istirahət və yataq otaqları, mətbəx və lift mövcuddur.

Mərkəzin kollektivi ilə söhbət edən Sahibə Qafarova deyib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə belə bir mərkəzin yaradılması iki dost xalq arasında münasibətlərin yüksək səviyyəsini nümayiş etdirir. O vurğulayıb ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond hər zaman xeyirxah və humanist təşəbbüsləri ilə nəinki Azərbaycanda, eləcə də ölkə hüdudlarından kənarda bir çox mühüm layihələr həyata keçirir. Fondun çoxşaxəli və xoşməramlı fəaliyyəti həmişə yüksək qiymətləndirilir.

Sonra Sahibə Qafarovanın rəhbərlik etdiyi parlament nümayəndə heyəti mərkəzin fəaliyyəti ilə tanış olub, mərkəzdə reabilitasiya keçən uşaqlarla görüşüb. Milli Məclisin Sədri mərkəzə xatirə hədiyyəsi təqdim edib.

# Gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi hər birimizin vəzifəsidir

İyunun 30-da Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev ölkəmizdə vətənpərvərliklə bağlı çəkilən filmlərin, habelə Bakı Bələdiyyə Teatrının aktyoru İlqar Musayev, habelə ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edən idmançılar ilə xüsusi karantin rejiminin şərtlərinə əməl etməklə görüş keçirib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Adil Əliyev döyüş meydanında qazanılmış tarixi Qələbəyə toxunaraq, bu Zəfərin şanlı tariximizin ən böyük hadisəsi olduğunu, gələcək nəsillərin bu Qələbəni hər zaman xatırlayacağını xüsusi vurğulayıb. Rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatların məntiqi yekunu olaraq ölkəmizin ərazi bütövlüyünün tam təmin edildiyi, uzun illər işğal altında qalmış əzəli və əbədi torpaqlarımız düşmən işğalından birdəfəlik qurtulduğu iştirakçıların diqqətinə çatdırılıb. Vurğulanıb ki, Vətən müharibəsi Ordumuzun döyüş arsenalının müasir silahlarla təchiz edilməsi ilə yanaşı, Silahlı Qüvvələrimizin dünyanın ən yaxşı ordularından biri olduğunu göstərdi.

Gənc nəslin sağlam, vətənpərvər, milli-mənəvi dəyərlərə bağlı ruhda yetişdirilməsinin zəruriliyinə toxunan A.Əliyev bundan sonra da bu sahədə məqsədyönlü iş aparılmasının vacibliyini qeyd edib. Bildirib ki, bu gün baş verənlərin gələcək nəslə ötürülməsi, həmçinin həqiqətlərimizin dünyaya çatdırılması mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda gənc nəslin tərbiyə edilməsində bədən tərbiyəsi və idmanın xüsusi əhəmiyyətinə toxunan Milli Məclis Sədrinin müavini idmançılarımızın hər zaman beynəlxalq yarışlarda uğurla çıxış etməsini, idmanın ölkəmizin brendi olmasını, istər idmançılarımızın uğurları, istərsə də idman yarışlarının ölkəmizdə ən yüksək səviyyədə təşkilinin idmana verilən ən böyük dəyər olduğunu bildirib. Habelə idmançılarımızın hər zaman dövlət başçısının diqqət mərkəzində olduğu, onların qayğılarının dərhal həlli üçün müvafiq göstərişlərin verildiyi qeyd edilib. Vurğulanıb ki, bu gün baş hadisələrin gənc nəslə doğru şəkildə çatdırılması hər birimizin vəzifəsidir.

İdmançıları təbrik edən Milli Məclis Sədrinin müavini onlara davamlı uğurlar qazanmağı arzulayıb. Görüşdə iştirak edən idmançılar üzərilərinə düşən məsuliyyəti yaxşı anlayaraq yarışlarda uğurlu çıxış edəcəklərini bildiriblər. Sonra Adil Əliyev İlqar Musayevə işlərində uğurlar arzu edib. Vətənpərvər və maarifçi videoların çəkilməsinin bundan sonra da davam etdirilməsinin zəruriliyini bildirib. İdmançılar şanlı Ordumuzun müharibədə qazandığı tarixi Zəfəri beynəlxalq yarışlarda uğurla davam etdirəcəklərinə əminliklərini bildiriblər.

Sonda idmanda fərqlənən şəxslərə parlamentin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim edilib.

# Azərbaycan-Türkiyə münasibətlərinin dünyada analoqu yoxdur

İyunun 30-da Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov Azərbaycanda diplomatik fəaliyyətə başlayan Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.

Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub. Bildirilib ki, Türkiyə ilə Azərbaycan arasında mövcud olan strateji münasibətlər, hər iki dövlət başçılarının mökəmləndirdiyi dostluq və qardaşlığımız əbədidir.

Akademik Əhliman Əmiraslanov diqqətə çatdırıb ki, Türkiyə ilə Azərbaycan arasındakı yaxın münasibətlərin dünya miqyasında analoqu yoxdur. Deputat ölkələrimizin parlamentləri səviyyəsində də əməkdaşlığının yüksək səviyyədə olduğunu, hər iki ölkənin parlamentində geniş tərkibli dostluq qruplarının fəaliyyət göstərdiyini söyləyib. Bildirilib ki, deputatlarımız müxtəlif nüfuzlu beynəlxalq platformalarda bir-birilərini dəstəkləyir və demək olar ki, eyni mövqedən çıxış edirlər.

Əhliman Əmiraslanov səfirə Azərbaycan parlament nümayəndə heyətinin 7 - 11 iyun 2021-ci il tarixdə Türkiyəyə səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlərdən və onların əhəmiyyətindən danışaraq ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Söhbət zamanı səfir Cahit Bağçı səmimi görüşə görə minnətdarlığını bildirərək Azərbaycanda mühüm tarixi bir dövrdə səfir kimi fəaliyyətə başlamasından böyük şərəf duyduğunu qeyd edib. Türkiyə ilə Azərbaycan arasında strateji münasibətlərin möhkəm əsaslara malik olduğunu vurğulayan səfir bu münasibətlərin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə edib.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib



İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) birinci vitse-prezidenti Yurgen Riqterink və həmkarları ilə görüşüb.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın EBRD ilə əlaqələrin inkişafına önəm verdiyi və uğurlu əməkdaşlıq etdiyi vurğulanıb. Qeyd olunub ki, bankla birgə həyata keçirilən layihələr iqtisadiyyatın şaxələndirilməsinin təşviqi və qabaqcıl təcrübənin ölkəmizdə tətbiqi baxımından mühüm əhəmiyyət kəsb edir. EBRD tərəfindən indiyədək Azərbaycan iqtisadiyyatına 177 layihə üzrə 3 milyard avrodan çox investisiya yatırılıb.

Nazir Azərbaycanın sosial-iqtisadi prioritetləri barədə məlumat verib, qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində işğaldan azad olunmuş ərazilərimizin bərpasında və ölkə iqtisadiyyatına reinteqrasiyasında bankın iştirak imkanlarını diqqətə çatdırıb. Bildirilib ki, EBRD ilə Sahibkarlığın İnkişafı Fondu arasında əməkdaşlığın inkişafı, həmçinin dövlət-özəl tərəfdaşlığı, "yaşıl iqtisadiyyat" və bərpa olunan enerji üzrə əlaqələrin gücləndirilməsi potensialı böyükdür.

Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Y.Riqterink bankın Azərbaycanla uzunmüddətli və səmərəli tərəfdaşlığını vurğulayıb, ölkəmizin geniş iqtisadi potensialının əlaqələrin möhkəmləndirilməsinə əlverişli zəmin yaratdığını və qurumun bundan sonra da Azərbaycan iqtisadiyyatını dəstəkləmək niyyətini qeyd edib.

EBRD-nin Şərqi Avropa və Qafqaz regionu üzrə icraçı direktoru Matteo Patrone və Qafqaz üzrə regional direktoru xanım Katarina Byorlin Hansenin də iştirak etdiyi görüşdə Azərbaycan-EBRD tərəfdaşlığının genişləndirilməsi istiqamətləri, bankın 30-cu illik toplantısı və biznes forumu barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycanın daxili işlər orqanları - 103



# Böyük Zəfər 103 illik fəaliyyət tarixinin ən möhtəşəm səhifələrindəndir

## Azərbaycan polisi indi üç cəbhədə qəhrəmanlıq, vətənpərvərlik və məsuliyyət missiyası nümayiş etdirir

*Əvvəli 1-ci səh.*

Bir məqamı da qeyd edək ki, hələ Birinci Qarabağ savaşı dönəmində ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti rəşadətlə döyüşmüş, böyük qəhrəmanlıq örnəyi yaratmışdı. Öncəki savaşda əməkdaşlardan 932 nəfəri şəhid olmuş, 681 nəfəri isə yaralanmışdı.

Vətən savaşında bu mərdlik, vətənpərvərlik nümunələrini davam etdirən şəxsi heyət böyük şücaətlə xidmət göstərmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəf izlərini həkk etdirmişdir. Düşmənlə ağır döyüşlərdə Daxili İşlər Nazirliyinin mühüm təşkilati strukturu olan Daxili Qoşunların 66 hərbçisi şəhid olmuş, 346 nəfər isə yaralanmışdır. Prezident tərəfindən 1377 hərbi qulluqçu yüksək dövlət təltiflərinə, 4 nəfər "Vətən müharibəsi qəhrəmanı" adına layiq görülmüşdür.

### Arxa cəbhənin qəhrəmanları

Bir məqamı da vurğulayaq ki, daxili işlər orqanlarının əməkdaşları arxa cəbhədə də rəşadətli xidmətlərini davam etdirirdilər. Ötən il Azərbaycanda hərbi vəziyyətin elan olunması ilə əlaqədar 22 şəhər və rayonda komendant saatı tətbiq edildi. Prezidentin sərəncamı ilə daxili işlər naziri müvafiq ərazilər üzrə komendant təyin olundu. 2020-ci il sentyabr ayının 28-dən dekabrın 12-dək qüvvədə olan komendant saatı dövründə hərbi vəziyyət rejiminin əsas təminatçıları olaraq daxili işlər orqanları çox fədakar, əzmkar xidmət göstərdilər. Bütün şəxsi heyət bu prosesin layiqincə icrası üçün yalnız hərbi vəziyyət rejiminin tətbiq edildiyi inzibati ərazi vahidlərində deyil, ümumiyyətlə, respublika üzrə səfərbər oldular.

Komendant saatının tətbiq olunduğu şəhər və rayonlarda minlərlə əməkdaş və hərbi qulluqçu cəlb edilərək, xüsusi giriş-çıxış rejiminin təşkili məqsədilə stasionar postlar quruldu, müvafiq icazəsi olmayan şəxslərin, o cümlədən nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırıldı. Həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin, yaralanmış hərbi qulluqçuların yerləşdirildiyi mülki xəstəxanaların mühafizəsi gücləndirildi. Polis əməkdaşları mülki əhali üçün daldanacaqların və sığınacaqların hazırlanmasında yaxından iştirak etdi, zəruri hallarda insanların oraya yerləşdirilməsini, onlar arasında izahat işlərinin aparılmasını təmin etdi.

Düşmənin artilleriya atəşinin nəticələrinin aradan qaldırılmasında, yaralanmış mülki şəxslərin dağıntılar altından çıxarılıb tibb müəssisələrinə çatdırılmasında aidiyyəti dövlət orqanlarına bütün lazımi kömək göstərildi. Yerli icra hakimiyyətləri ilə birgə dinc sakinlərin cəbhəboyu zonadan təxliyə olunması üzrə tədbirlər də görüldü. Müvəqqəti boşaldılmış yaşayış məntəqələrində asayişin qorunması, o cümlədən fiziki və hüquqi şəxslərə məxsus əmlakın talanmasının qarşısının alınması üçün fasiləsiz xidmət aparıldı. "102" xidmətinə daxil olan zənglər əsasında partlamamış yüzlərlə mərmilərin düşdüyü əraziyə ANAMA-nın qüvvə və vasitələri cəlb edildi, mərmilərin zərərsizləşdirilməsi prosesində zəruri təhlükəsizlik tədbirləri görüldü.

Ölkədə elan edilmiş qismən səfərbərlik tədbirlərinin təşkilində, o cümlədən çağırışçıların təyinat məntəqələrinə təhlükəsiz çatdırılmasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarına lazımi kömək göstərildi. Cəbhəboyu ərazilər istiqamətində bütün avtomobil yollarında nəqliyyatın fasiləsiz hərəkətinin təmin edilməsi üçün müvafiq təhlükəsizlik və nəzarət tədbirləri də həyata keçirildi. Bütövlükdə respublikanın daxili işlər orqanları və Daxili Qoşunlar tərəfindən hərbi vəziyyət rejimindən irəli gələn vəzifələrin vaxtında və tam yerinə yetirilməsi, ictimai asayişin, insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində bütüm zəruri tədbirlər görüldü.

Sevindirici haldır ki, bu müddətdə hərbi vəziyyət rejiminin tələblərinin kütləvi pozuntusuna rast gəlinmədi və vətəndaşlarımız komendant saatının təmin olunmasına cəlb edilmiş polis əməkdaşlarının, hərbi qulluqçuların qanuni tələblərinə ciddi əməl etdilər. Xalqımızın "Hər şey cəbhə üçün! Hər şey Vətən üçün!" məramı ətrafında birləşməsi hərbi vəziyyət və komendant saatı rejimlərinin də əsasən problemsiz icrasını təmin etdi.

### Qarabağda xidməti fəaliyyətin yeni mərhələsi

İşğaldan azad olunmuş ərazilərdə xüsusi idarəetməni həyata keçirən komendantlıqların təşkili, sonradan isə polisin tammiqyaslı xidmətə keçməsi ilə daxili işlər orqanlarının fəaliyyətində yeni mərhələ başlayıb. Hələ Ermənistan təslimçilik aktını imzalamamış və savaş bitməmiş möhtərəm Prezidentimiz böyük müdriklik və uzaqgörənliklə "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzaladı. 29 oktyabr 2020-ci il tarixli fərmana əsasən, işğaldan azad olunmuş ərazilərdə hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alındı.

Fərmanın imzalanmasından dərhal sonra bütün ərazilər üzrə komendantlıqlar yaradıldı, müvəqqəti komendantlar təyin olundu. Daxili İşlər Nazirliyinin həyata keçirdiyi və digər dövlət strukturlarının təmsilçilərinin iştirakı ilə komendantlıqlar işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqindən başlayaraq bütün digər istiqamətlər üzrə mühüm vəzifələri icra etdilər.

İndi isə polis işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərir, əməkdaşlar, eləcə də Daxili Qoşunların hərbi qulluqçuları xidməti vəzifələrini layiqincə icra edirlər.










Böyük fədakarlıqlar, itkilər hesabına işğaldan azad olunan torpaqlarda təhlükəsizliyi təmin etmək, asayişi yaratmaq, vətəndaşların orada normal yaşayışı üçün müvafiq tədbirləri həyata keçirmək məqsədilə polis səfərbər olunub və onun şəxsi heyəti bu günü yalnız vəzifə borcu kimi yox, həm də şərəfli missiya kimi qəbul edir.

Xüsusi vurğulanmalıdır ki, yerli polis bölmələrinin əməkdaşları ilə yanaşı, ətraf bölgələrdə xidmət keçən əməkdaşlar da məhz işğaldan azad edilmiş ərazilərdə xidmətlərini davam etdirmək arzusundadırlar və bununla əlaqədar çoxsaylı müraciətlər olur.

Müzəffər Ali Baş Komandanın "Qarabağa, tarixi torpaqlarımıza onun sahibləri, biz qayıtmışıq. Bu torpaqlardan bir də heç vaxt çıxmayacağıq" bəyanatı da daxili işlər orqanlarının əməkdaşları üçün Qarabağ bölgəsində xidmətin əsas məramı, məqsədi və hədəfidir.










### Pandemiyaya qarşı prinsipial mübarizə

Azərbaycanda 2020-ci il mart ayının 14-dən etibarən, yəni 16 aydan artıqdır ki, xüsusi karantin rejimi tətbiq olunub. Respublikamızın şəhər və rayonlarında karantin qaydalarına əməl olunması məqsədilə daxili işlər orqanlarının əməkdaşları tərəfindən gücləndirilmiş iş variantında xidmət aparılmaqla nəzarət-profilaktik tədbirlər davamlı olaraq həyata keçirilir.

Müəyyən dövrlərdə bu rejim sərtləşdirilib, məhdudiyyətlər tətbiq olunub. Bu sahədə Prezidentin rəhbərliyi altında aparılan dövlət siyasəti nəticəsində pandemiyada əvvəllər müşahidə olunan riskli vəziyyət aradan qaldırılıb, yoluxma və ölüm sayları minimuma endirilib. Bu şərait isə karantin rejiminin yumşaldılmasına və müəyyən məhdudiyyətlərin aradan qaldırılmasına imkan yaradıb. Bu müsbət gedişatın yaranmasının mühüm səbəbi məhz məhdudiyyətlərin tətbiqi və sərt rejimin elan edilməsi olmuşdu. Əgər insanların təmasını azaldan, sosial məsafə qaydasını müəyyənləşdirən və digər məlum qadağalar, eləcə də bu sahədə daxili işlər orqanlarının prinsipial fəaliyyəti olmasa idi, indi ölkəmizdə vəziyyət dünyanın əksər dövlətlərində müşahidə olunan acınacaqlı vəziyyətlə eyni olardı.

İşğaldan azad edilmiş və minalardan təmizlənməmiş ərazilərə vətəndaşlarımızın qanunsuz yolla keçməyə göstərdikləri cəhdlər qədər təhlükəli digər misal elə pandemiyaya qarşı tətbiq olunan qadağalara etinasız yanaşmaqdır. Hər iki məsələ ilə bağlı tətbiq olunan məhdudiyyətlərin polis əməkdaşları tərəfindən qətiyyətlə həyata keçirilməsi birmənalı olaraq məhz vətəndaşlarımızın həyat və sağlamlığının təhlükəsizliyi üçündür.

Virusa yoluxmuş şəxslərin müalicə aldığı, eləcə də virusa yoluxmaları ehtimal olunanların karantinə yerləşdirildiyi xəstəxanaların və digər obyektlərin sutkalıq mühafizəsi daxili işlər orqanları tərəfindən davam etdirilir. Hospitalizasiya edilənlərin yaşayış yerlərinin, onlar ilə təmasda olmuş şəxslərin müəyyən edilib tibbi müayinələrə cəlb edilməsində tibb müəssisələrinə lazımi kömək göstərilir. Ev şəraitində müalicə alan virusa yoluxmuş xəstələrin digər şəxslərlə təmasının istisna edilməsi məqsədilə yerli icra hakimiyyətləri, TƏBİB-in ərazi qurumları və digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə zəruri tədbirlər görülür.

Qaydalara əməl etməyən şəxslərə DİN əməkdaşları tərəfindən xəbərdarlıq və digər inzibati tənbeh tədbirləri, bəzən sərt cəzalar tətbiq edilir. Xüsusi karantin rejiminin tələblərini pozan şəxslər haqqında inzibati tənbehlər tətbiq edilib. O cümlədən xüsusi karantin rejiminin tələblərini pozmaqla fəaliyyət göstərən obyektlərin sahibləri barədə inzibati məsuliyyət tədbirləri görülür. Yaşayış yerini tərk etmiş COVID-19 diaqnozlu mindən çox şəxs müəyyən edilib, onlardan infeksiyanın yayılması üçün real təhlükə yaradanlar barədə isə cinayət işləri başlanılıb.

Daxili İşlər Nazirliyinin rəsmiləri dəfələrlə bəyan ediblər ki, bu cəzalar yeganə çıxış yolu deyil. İctimai qınaq, məzəmmət və nəzarət nazirliyin bu prosesdə üstünlük verdiyi və cəmiyyətdən daha çox gözlədiyi reaksiyadır. Karantin rejimi dövrü üçün qüvvədə olan qaydalara əməl etmək mütləq və vacibdir. Biz amansız virusa yalnız birlikdə, qaydalara riayət etməklə qalib gələ bilərik.

Sosial izolyasiya tədbirlərinin icrası sahəsində daxili işlər orqanlarının əməkdaşları üzərlərinə düşən vəzifələri uğurla yerinə yetirir, sayıqlığı itirmirlər. İctimaiyyət tərəfindən bu xidmətin həssaslıqla və minnətdarlıq hissi ilə qarşılanması da xüsusi təqdirə layiqdir.







### Azərbaycan polisinin fəaliyyəti təqdir edilir

Vətəndaşların əmin-amanlığının yüksək səviyyədə təmin edildiyi, təhlükəsizliyinin etibarlı qorunduğu dövlət imicini Azərbaycan daim möhkəmləndirir. Ölkəmiz yenə də əhalinin say nisbəti üzrə cinayətlərin azlığına görə MDB və Şərqi Avropa məkanında öncül mövqeyini qoruyur. Davos Forumunun son hesabatına əsasən, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizə indikatoru üzrə 141 ölkə arasında 18-ci, polis orqanlarına əhalinin etibarına görə 30-cu yerə yüksəlib.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra respublikada daxili sabitliyin təmin edilməsində, əməliyyat şəraitinin və kriminogen durumun stabilləşdirilməsində, qanunçuluğun və hüquq qaydasının möhkəmlənməsində polis böyük rol oynayıb. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən daxili işlər orqanlarının 102 əməkdaşı həlak olub, 2796 əməkdaşı xəsarət alıb. Yaxud da son 18 ildə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 17 minə yaxın odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb.

Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 58 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 13 tona yaxın narkotik vasitə çıxarılıb.

Ölkəmizdə müasir dövrdə kriminogen durumun vəziyyətinə bir faktın timsalında nəzər salaq. Ötən il 44 gün ərzində müharibə getdi. Həmin vaxt olduqca həssas dövr idi, hər an vəziyyət gərginləşə bilərdi və antimilli, düşmən qüvvələr tərəfindən buna cəhdlərin göstəriləcəyi də istisna olunmurdu. Ancaq ölkədə elə möhkəm ictimai sabitlik bərpa olunub ki, komendant saatı dövründə asayişə xələl gətirəcək ciddi heç bir hadisə baş vermədi. Yəni xalqımız, vətəndaşlarımız özləri də böyük çətinliklə, məşəqqətlə əldə olunan sabitliyə sahib çıxırlar.

Son il ərzində də daxili işlər orqanları vəzifələrini uğurla icra edib, vətəndaşların mənafeləri etibarlı şəkildə qorunub, kriminogen durum nəzarətdə saxlanılıb. Qeydə alınan cinayətlərin 90 faizə qədərini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib. Qəsdən sağlamlığa az ağır zərərvurma, mülkiyyət əleyhinə olan cinayətlər, o cümlədən oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, avtonəqliyyat vasitələrinin qaçırılması kimi cinayətlər azalıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin açılması da yaxşılaşıb. Bu göstəricilər ümumilikdə ölkədəki kriminogen durumun vəziyyətini əks etdirən müsbət məqamlardır. Bununla yanaşı, polis aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli bütün kütləvi tədbirlərdə ictimai qaydanı və təhlükəsizliyi yüksək səviyyədə təmin edir.

Ölkənin hüquq mühafizə orqanlarının səylərinin vahid məqsəd üzərində cəmləşməsi sayəsində cinayətkarlığa qarşı mübarizədə, fundamental insan haqlarının qorunması işində əhəmiyyətli nəticələrə nail olunub. Xidməti fəaliyyətin bütün istiqamətlərində əldə edilmiş irəliləyişləri daha da inkişaf etdirmək Azərbaycan polisi qarşısında duran əsas məqsədlərdəndir.

### Uğurlu islahatlar, təkmil kadr hazırlığı

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr müasir tariximizə dinamik inkişaf, dərin islahatlar, o cümlədən polisin xidmətinin təkmilləşdirilməsi üzrə davamlı fəaliyyət mərhələsi kimi daxil olub. Bu gün daxili işlər orqanları müasir maddi-texniki bazası, infrastrukturu və qabaqcıl texnologiyası olan mobil dövlət qurumudur.

Bu strukturda islahatlar, kadr hazırlığının artırılması və modernləşdirilməsi, fəaliyyətin təkmilləşdirilməsi prosesi hazırda sistemli şəkildə bir-birini tamamlayan vahid istiqamətlər üzrə həyata keçirilir.

Müasir dövrün tələblərinə uyğun kadrların hazırlığı xüsusi diqqət yetirilən məsələlərdəndir. Şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldilməsi üçün ardıcıl iş aparılır. Ölkəmizdə və xarici dövlətlərdə keçirilən treninqlərə, forumlara, təcrübə mübadiləsinə və digər tədbirlərə minlərlə əməkdaş cəlb olunur. Polisin əsas vəzifələrinin icrasının təşkilində, o cümlədən transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə - BMT, Avropa İttifaqı, NATO, MDB kimi nüfuzlu təşkilatların və onlarla ölkənin aidiyyəti qurumları ilə səmərəli əməkdaşlıq münasibətləri öz bəhrəsini verir.

Daxili işlər orqanları vətəndaşla sıx təmasda olan strukturlardandır. Fəaliyyətləri daim vətəndaşın gözü önündədir, eyni zamanda vətəndaş hansısa bir çətinliklə üzləşəndə dərhal müraciət edəcəyi ilk orqan polisdir. Bu baxımdan əməkdaşlardan peşəkarlıq, məsuliyyətlə yanaşı, sağlam, səmimi ünsiyyət vərdişləri tələb olunur.

Prezident İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olması barədə fikirləri daxili işlər orqanlarında xidmətə qəbul prosesində əsas meyardır. Şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirilən qəbullarda biliyi və bacarıqları, dünyagörüşləri qaneedici səviyyədə olan, polis adını və şərəfini uca tutacaq gənclər şəxsi heyətin sıralarına qəbul edilir. Eləcə də, Vətən savaşında iştirak etmiş və daxili işlər orqanlarında fəaliyyət göstərmək arzusunda olan gənclərə lazımi şərait yaradılır. Fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü müvafiq tələblərə cavab verdiyi təqdirdə onlar xidmətə qəbul edilirlər.

Nazirliyin təhsil müəssisələrində - Polis Akademiyasında, A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbdə və Daxili Qoşunların Ali Hərbi Məktəbində müasir düşüncəsi, vətənpərvərliyi və digər mənəvi keyfiyyətləri ilə seçilən, yeni çağırışlara adekvat cavab vermək bacarığına malik yeni nəsil yetişir. Hazırkı internet əsrində, rəqəmsal dünyada yüksək bilik və bacarıq olmadan keçinməyin mümkünsüzlüyünü nəzərə alaraq təhsil müəssisələrində kursantların intellektual səviyyəsinin yüksəldilməsinə, xüsusi nəzəri bilik, fiziki və psixoloji hazırlığına önəm verilir, onlara milli ruh, vətənpərvərlik, humanizm, zabit qüruru kimi mənəvi dəyərlər aşılanır.

### Dövlətçiliyin və müstəqilliyin etibarlı müdafiəçiləri

Mütəmadi olaraq fəaliyyətin bütün istiqamətləri üzrə monitorinqlər, araşdırmalar aparılır, əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı orqanlarda ümumi işə mənfi təsir göstərən hallar müəyyənləşdirilir, onların hərtərəfli təhlili aparılır, aradan qaldırılması yolları göstərilir. Eyni zamanda polisin şərəfli adına xələl gətirəcək, cəmiyyətin öz polisinə inamını sarsıdacaq hər hansı neqativ hala qarşı da kifayət qədər prinsipiallıq nümayiş etdirilir.

Daxili İşlər Nazirliyi mümkün olan bütün vasitələrlə - rəsmi mənbələrdən sosial şəbəkələrə qədər bütün platformalarda vətəndaşlarla sıx, operativ ünsiyyət qurub. Hər bir müraciət, təklif, şikayət araşdırılır, dəqiqləşdirilir, həlli üçün konkret iş görülür. Ən əsası isə bu proses qısa müddətdə həyata keçirilir.

Elektron xidmətlər, veb-saytlar, qaynar xətlər, "ASAN xidmət" mərkəzlərində fəaliyyət və digər bu kimi tədbirlər başlıca vəzifələrdən olan vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlib. Sevindiricidir ki, fəaliyyətlə bağlı vətəndaş məmnunluğunun davamlı olaraq artması daxili işlər orqanlarında arxayınçılıq yaratmır. Cənab Prezidentin müəyyənləşdirdiyi fəaliyyət üslubuna uyğun olaraq, onlar xalqın xidmətçisi funksiyasını fasiləsiz həyata keçirirlər.

Nazirlik sistemində maddi texniki təminatın, xidmət şəraitinin yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi istiqamətində Prezident tərəfindən davamlı tədbirlər həyata keçirilir. Bu ali dəstək, qayğı, himayə daxili işlər orqanlarının əməkdaşlarını daha da ruhlandırır, onları vətənə, xalqa sədaqət andı ətrafında sıx səfərbər edir. Bütövlükdə, polis və Daxili Qoşunlar milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayanır, insan hüquq və azadlıqlarının müdafiəsi üçün uğurlu fəaliyyət ortaya qoyurlar.

Prezident İlham Əliyevin dövlətçilik və müstəqillik kursunun sadiq icraçısı olan Azərbaycan polisi əminik ki, ötən 103 ildə olduğu kimi, bundan sonra da asayişin, daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaq, respublikamızın daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcəkdir.

*Həm də Vətənə, xalqa, Ulu Öndərin irsinə, möhtərəm Prezidentin kursuna sədaqət andına daim sadiq qalacaqdır. Müzəffər Sərkərdəmizin qazandığı Zəfərin müstəqilliyimiz kimi əbədi olması naminə daxili işlər orqanlarının hər bir əməkdaşı qətiyyətlə, fədakarlıqla xidmət edəcəkdir.*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

# Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupun iclası keçirilib

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupun növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Fövqəladə Hallar Nazirliyinin və digər müvafiq dövlət qurumlarının məsul nümayəndələri iştirak ediblər.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində hərbi-siyasi, sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli ilə bağlı Fəaliyyət Planı" üzrə aidiyyəti qurumlar tərəfindən ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə işğaldan azad edilmiş rayonlarda aparılan kompleks monitorinqlər, o cümlədən transsərhəd çayların çirkləndirilməsinə nəzarət edilməsi və radioekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə aparılan monitorinqlər haqqında qrup üzvlərinə məlumat verilib. Həmçinin Fəaliyyət Planının icrası ilə bağlı aidiyyəti qurumların nümayəndələri tərəfindən məlumatlar verilib, tədbirlərin icrası zamanı qarşıya çıxan məsələlərin həlli istiqamətində müzakirələr aparılıb.

İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən qurumlarla yanğına qarşı mübarizə məqsədilə geniş təbliğat işlərinin aparılmasına baxmayaraq, baş verən yanğın hadisələri barədə qrup üzvlərinə məlumat verilib. Hazırda mina təhlükəsinin mövcudluğu həmin ərazilərdə canlı qüvvədən və yerüstü texnikadan istifadəni məhdudlaşdırır. Yanğınlar nəticəsində ətraf mühitə, bioloji müxtəlifliyə, meşə fonduna, torpaq örtüyünə ciddi ziyan vurulur. İclasda aidiyyəti qurumların bu sahədə fəaliyyətinin gücləndirilməsinin, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsinin, baş verə biləcək yanğın hadisələrinin qarşısının alınması üçün kütləvi xəbərdaredici və maarifləndirici təbliğatın davam etdirilməsinin vacibliyi vurğulanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Türkiyə Respublikasının Meşə və Kənd Təsərrüfatı Nazirliyi arasında imzalanmış anlaşma memorandumuna və Qarabağ işçi qrupunun fəaliyyət planına uyğun olaraq Azərbaycan Respublikasında meşəçiliyin inkişafına töhfə verilməsi, Qarabağda məhv edilmiş meşələrin bərpası məqsədilə türkiyəli nümayəndələrin ölkəmizə səfəri təşkil olunmuş, qarşılıqlı fikir mübadiləsindən sonra Dostluq meşəsinin, Qarabağ Təlim Mərkəzinin və Qapalı kök sistemli tingliyin yaradılması qərara alınmışdır.

Hazırda Türkiyədən olan mütəxəssislər tərəfindən təlim mərkəzinin plan sxemi hazırlanır. Meşə əraziləri minalardan və partlamamış mərmilərdən təmizlənmədiyi üçün meşələrin invertarlaşdırma işləri uzaqdan zondlama üsulu ilə aparılacaq.

Qrup fəaliyyətini İdarələrarası Mərkəzin digər İşçi qrupları ilə sıx əlaqə və məlumat mübadiləsi formatında həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan Ombudsmanı Türkiyənin nümayəndə heyəti ilə birgə Ağdamda faktaraşdırıcı missiya həyata keçirir





Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın dəvəti ilə ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) rəhbəri Süleyman Arslanın rəhbərlik etdiyi nümayəndə heyətinin işğaldan azad edilmiş Ağdam rayonuna və Vətən müharibəsi dövründə Ermənistanın raket hücumlarına məruz qalan mülki yaşayış məntəqələrinə faktaraşdırıcı səfəri təşkil edilib. Faktaraşdırıcı missiya Ombudsman Səbinə Əliyeva və Aparatın əməkdaşları ilə birgə həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, səfərin əsas məqsədi işğaldan azad edilmiş və müharibə dövründə hücumlara məruz qalmış ərazilərimizdə yerində araşdırmalar aparmaq və sübutlar toplamaqdır. Nümayəndə heyətinə Türkiyə universitetlərinin beynəlxalq humanitar hüquq və müharibə cinayətləri ilə bağlı araşdırma təcrübəsinə malik olan tədqiqatçıları da daxildir. Səfərdə iştirak edən TİHEK nəzdində yaradılmış Qarabağ Müşahidə Qrupunun üzvləri olan tədqiqatçılar hüquq pozuntuları ilə bağlı araşdırmalar aparırlar.

Nümayəndə heyətinin üzvləri iyunun 30-da işğaldan azad edilmiş və ən çox dağıntıların törədildiyi Ağdam rayonunda olublar. Nümayəndə heyətinə Ağdam şəhərinin təməlinin qoyulduğu ərazidə Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi, eləcə də həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun ötən ilin payızında 44 günlük müharibədə qazandığı Zəfər nəticəsində Ağdam da işğaldan azad edilib. İndi Ağdamın yeni bərpa, quruculuq dövrü başlayıb.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış və talan edilmiş yaşayış binalarına, dini və tarixi abidələrə, o cümlədən Ağdam Cümə məscidinə, İmarət kompleksinə, teatr və çörək muzeyinin binalarının, Qiyaslı məscidinin qalıqlarına baxış keçirilib, monitorinq aparılıb.

Türkiyə nümayəndə heyəti Cümə məscidində namaz qılıb.

Faktaraşdırıcı missiya əldə edilmiş nəticələr əsasında hesabat hazırlayaraq beynəlxalq təşkilatlara göndərəcək.

# *Ceyhun BAYRAMOV:* "Zəngəzur dəhlizi Naxçıvanı Azərbaycanla birləşdirməklə yanaşı, ticarət və nəqliyyat əlaqəsinə də xidmət edəcək"



"Albaniyanı qarışıq bir zamanda uğurlu prezidentliyi münasibətilə təbrik etməklə başlamaq istərdim, çünki dünya iki aktual və dövrü müəyyən edən çətinliklərlə qarşılaşır: COVID pandemiyasına qarşı və qlobal iqtisadi böhranla mübarizə. Hər iki problem səmərəli, əlaqələndirilmiş və çoxtərəfli əməkdaşlıq tələb edir. QDİƏT regional əməkdaşlığın vacib bir mexanizmi olaraq dayanıqlı cəmiyyətlər və dayanıqlı iqtisadiyyatlar yaratmağa yönəlmiş səyləri dəstəkləmək üçün bütün imkanlara malikdir. Öz növbəsində Azərbaycan pandemiyaya qarşı qlobal tədbirlərin səfərbər olunması üçün səylərin önündədir. Qoşulmama Hərəkatının Zirvə görüşü və bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının Dövlət və Hökumət Başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi buna yaxşı nümunə ola bilər. İnkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında peyvəndlərin ədalətsiz paylanması və "peyvənd millətçiliyi" Azərbaycanı çox narahat edir. Qoşulmama Hərəkatının sədri kimi və milli potensialımız daxilində, peyvəndlərin dünyada ədalətli paylanması üçün təbliğat aparmağa davam edirik. BMT İnsan Hüquqları Şurası yekdilliklə bütün ölkələrin peyvəndlərə ədalətli çıxışına dair Azərbaycan tərəfindən bu ilin mart ayında irəli sürülən qətnaməni qəbul etdi. Şəffaf və mütəşəkkil vaksinasiya normal həyata geri dönməyimizi və iqtisadi canlanmanı sürətləndirməyimizi təmin edə bilər".

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov QDİƏT üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxışı zamanı deyib.

Nazir bildirib: "Azərbaycan hesab edir ki, QDİƏT çərçivəsində əməkdaşlığımız fəaliyyətin layihə yönümlü tərəfinin gücləndirilməsi yolu ilə daha da inkişaf etdirilə bilər və postpandemiya dövrü bunun üçün vacib şərtdir. Tələbə əsaslanan proqramlara və məqbul bir vaxt çərçivəsində həyata keçirilə biləcək birgə iqtisadi layihələrə diqqət yetirmək vacibdir. Bu baxımdan işçi qruplarının potensialından, ölkə koordinatorlarının mexanizmindən və əlaqəli QDİƏT qurumları arasındakı qarşılıqlı əlaqədən tam istifadə edilməlidir. Bunu nəzərə alaraq, Azərbaycan mədəniyyət, institusional yenilənmə və yaxşı idarəçilik məsələləri ilə əlaqədar iki işçi qrupun ölkə əlaqələndirilməsini üzərinə götürüb və bu sahələrdə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcək".

Gələn il təşkilatın 30 illiyinin qeyd ediləcəyini bildirən C.Bayramov deyib ki, QDİƏT indi, xüsusilə dəyərlərini və öhdəliklərini təsdiqləyərək və məqsəd duyğusunu canlandıraraq, üç onillik dialoq və əməkdaşlığın uğurlarına əsaslanmalıdır. Daim dəyişən beynəlxalq və regional bir mühitdə təşkilat öz əlavə dəyərini qorumalı və öz dəyərlərini qoruyaraq yeni reallıqlara uyğunlaşmalıdır. Bizim fikrimizcə, təşkilat QDİƏT İqtisadi Gündəminin həyata keçirilməsinə diqqət yetirməli və zərurət yarandığı təqdirdə iqtisadi əməkdaşlığa lazımi təkan verəcək yeni hədəflər və vəzifələr qurmalıdır.

"Milli səviyyədə COVID təcrübəsinə əsaslanaraq, Azərbaycan iqtisadi və ticarət fəaliyyətlərinə dəstəyini daha da gücləndirdi. 2021-ci ilin fevralında "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafın Milli Prioritetləri" adlı strateji sənəd qəbul edildi. Prezident İlham Əliyev tərəfindən təsdiqlənən sənəddə yaxın on ildə əldə ediləcək 5 milli prioritet müəyyən edilmişdir. Bu prioritetlərə rəqabətli iqtisadiyyat; dinamik, əhatəli və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabət qabiliyyətli insan kapitalı və müasir yeniliklər üçün yer; azad edilmiş ərazilərə böyük qayıdış; təmiz ətraf mühit və "yaşıl inkişaf" ölkəsi daxildir. Bu prioritetlər "Davamlı İnkişaf üçün 2030 Gündəmi"nə nail olmaq üçün də xüsusi əhəmiyyət kəsb edir", - deyə nazir əlavə edib.

O, qeyd edib ki, nəqliyyat sektorunun inkişafı vacib prioritet olaraq qalır. Azərbaycanı Avrasiya bölgəsində əhəmiyyətli nəqliyyat mərkəzinə çevirmək üçün nəqliyyat şəbəkəsinin bütün hissələrinin inkişafına böyük diqqət yetirilir və bunlar beynəlxalq yük daşıyıcılarının diqqətini artırıb. Bu gün Azərbaycandan keçən dəhlizlər və marşrutlar nəqliyyat operatorları üçün yüksəksəviyyəli infrastruktur və ən qısa çatdırılma müddəti baxımından rəqabət imkanları təklif edir. Eyni zamanda regional sinerjinin inkişafında fəal rol oynayırıq, rabitə və maneəsiz nəqliyyat əməliyyatlarının yaxşılaşdırılmasına yönəlmiş yeni əməkdaşlıq formatlarını dəstəkləyirik.

Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında Ermənistanla münasibətləri normallaşdırmaq əzmini dəfələrlə dilə gətirdiyini vurğulayan Ceyhun Bayramov bölgədə uzunmüddətli sülh və sabitliyin təmin edilməsi üçün bu əsasda yaxşı qonşuluq münasibətlərinin qurulmasının alternativi yoxdur. Hər iki tərəfin liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın ardıcıl həyata keçirilməsi yolu ilə bu cür münasibətləri qurmaq üçün misilsiz bir şans var.

Ermənistanla dövlət sərhədinin 30 illik işğaldan azad edilməsindən sonra Azərbaycan hazırda dövlət sərhədi boyunca sərhəd nəzarəti infrastrukturu qurur. Ermənistana sərhəd delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli müzakirələrə başlamağı təklif edirik. Azərbaycan Ermənistanın müsbət reaksiyasını gözləyir.

Ermənistanda Azərbaycana qarşı revanşist ritorika ilə müşayiət olunan nifrət ciddi narahatlıq doğurur. Ermənistandakı hakim və müxalif siyasi xadimləri birləşdirən anti-Azərbaycan nifrət nitqi kövrək normallaşma prosesini risk altına alır. Ermənistan, nəhayət, beynəlxalq humanitar hüquq, habelə üçtərəfli bəyanat çərçivəsində götürdüyü öhdəliklərini yerinə yetirməli və əlavə insan əzabının qarşısını almaq üçün minalanmış ərazilərin xəritələrini təqdim etməlidir.

"Üçtərəfli Bəyanata uyğun olaraq, silahlı qarşıdurmanın sona çatması ilə Azərbaycan münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoydu. Münaqişədən sonrakı dövrdə sülh, bərpa və yenidənqurma fəaliyyətlərinin davam etdirilməsi və məcburi köçkünlərin qayıtması Azərbaycan üçün mütləq prioritetdir.

Hökumət ərazilərin kütləvi məhv edilməsi ilə müşayiət olunan onilliklərdir davam edən işğalın nəticələrinin aradan qaldırılmasına yönəlmiş əməli addımlar atmağa başlamışdır. Yenidənqurma prosesində "yaşıl enerji", "ağıllı şəhər və ağıllı kənd" anlayışları, dairəvi iqtisadiyyat prinsipləri ilə yanaşı, sənət texnologiyaları da tətbiq ediləcəkdir. Tərəfdaş ölkələrin səylərimizi investisiyalar və texniki əməkdaşlıq yolu ilə dəstəkləmək marağını qiymətləndiririk", - deyən nazir diqqətə çatdırıb ki, münaqişənin həlli eyni zamanda regional əməkdaşlıq, inkişaf və tərəqqi üçün yeni perspektivlər açır. 2020-ci il 10 noyabr tarixli birgə Bəyanat bölgədə kommunikasiyaların açılmasını nəzərdə tutan 2021-ci il 11 yanvar tarixli Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli Bəyanatı ilə tamamlandı. Bu tədbirlərin həyata keçirilməsi QDİƏT regionunun mühüm hissəsinin - Cənubi Qafqazın mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. Azərbaycan və Türkiyə arasındakı yeni əlaqə zolağı olan Zəngəzur dəhlizi təxminən otuz ildir ki, mühasirədə olan Naxçıvanı Azərbaycanla birləşdirməklə yanaşı, mövcud ticarət və nəqliyyat əlaqəsinə də xidmət edəcəkdir. Kommunikasiyaların bərpası bütün bölgə üçün uduşlu bir vəziyyətdir və daha geniş Qara dəniz coğrafiyasının əhəmiyyətini artıracaqdır.

C.Bayramov bildirib ki, nəqliyyat, rabitə və ticarətlə bağlı təşəbbüslər yeni tərəfdaşlıqlardan və imkanlardan faydalanmaq fürsəti verəcəkdir. Gücləndirilmiş regional əməkdaşlıq inkişafı gücləndirməklə yanaşı, bölgədə hərbi alovlanma riskini azaldacaq və sülh və sabitliyi möhkəmləndirəcək iqtisadi payların yaradılmasına kömək edə bilər.

Silahlı qarşıdurmanın sona çatması ilə yaranan sülh, təhlükəsizlik və əməkdaşlıq baxışını reallaşdırmaq üçün QDİƏT də daxil olmaqla, beynəlxalq ictimaiyyətin maksimum səy göstərməsini gözləyirik. Azərbaycan ortaya çıxan fürsətlərin təşkilat və ayrı-ayrı üzv dövlətlər tərəfindən lazımi səviyyədə başa düşüləcəyini və adekvat şəkildə qiymətləndiriləcəyini arzulayır.

Lazar Komaneskunu QDİƏT-in yeni Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik edən nazir Azərbaycanın qurumun məhsuldar regional əməkdaşlıq üçün daha güclü platforma olması istiqamətində səyləri dəstəklədiyini bildirib.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir



**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının icraçı direktoru xanım Yanne Holst Hübner və Assosiasiyanın üzvü - Danimarka Krallığının Hərbi Prokurorluğunun prokuroru Klaus Risbserq ölkəmizə işgüzar səfərə gəliblər.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 29-da keçirilmiş görüşdə Azərbaycanın baş prokuroru, Assosiasiyanın vitse-prezidenti Kamran Əliyev qonaqlara Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq son dövrlərdə prokurorluq orqanlarında həyata keçirilmiş islahatlar, struktur və kadr dəyişiklikləri barədə ətraflı məlumat verməklə gənc hüquqşünasların işə qəbul edilməsinin və onların peşəkar kimi təkmilləşdirilməsinin prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı baş prokuror Ermənistanın işğalı altındakı torpaqlarımızın uzun illərdən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə azad edilərək, ölkəmizin ərazi bütövlüyünün bərpa edildiyini, işğal zamanı tamamilə dağıdılmış ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyat şəraitinin təmin edilməsi məqsədilə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldığını vurğulayıb.

Görüşdə cinayətkarlıqla mübarizədə dünya prokurorlarının səylərinin birləşdirilməsində Assosiasiyanın mühüm rolu qeyd olunaraq, ölkəmizin bu təşkilatla uzun illərdir sıx və uğurlu əməkdaşlığından məmnuniyyət ifadə edilib.

Nümayəndə heyəti səmimi görüşə və yüksək qonaqpərvərliyə görə minnətdarlıq ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, təşkilatın milli prokurorluq orqanlarımızla əməkdaşlığın genişlənməsində maraqlı olduqlarını bildirib.

Söhbət zamanı Assosiasiyanın 29-cu İllik Konfransı və Ümumi Yığıncağına 2024-cü ildə ölkəmizin evsahibliyi etməsi haqqında qərarın qəbul olunması Azərbaycan Prokurorluğunun bu quruma verdiyi töhfələrin nəticəsi kimi qiymətləndirilməklə, həmin tədbirlə əlaqədar bir sıra təşkilati məsələlər müzakirə edilib.

Bundan sonra nümayəndə heyəti Baş Prokurorluğun 2021-ci ilin fevralında istifadəyə verilmiş, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binada yaradılmış şəraitlə tanış olub.

Eyni zamanda 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət edən qonaqlar Assosiasiyaya yeni qəbul olunmuş gənc prokurorluq əməkdaşları ilə görüşüb və onların təşkilati və əməkdaşlıq məsələləri ilə bağlı suallarını cavablandırıblar.

Həmçinin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində də olan nümayəndə heyəti struktur qurumun fəaliyyəti barədə ətraflı məlumatlandırılıb.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# Qarabağ Dirçəliş Fondunun "Karabakh.Center" layihəsinin təqdimatı olub

*Əvvəli 1-ci səh.*

Biz ədalətsizliklə heç vaxt barışmamışıq və milli maraqlarımızı qorumaq üçün "dəmir yumruq" kimi birləşmişik.

Şanlı Qələbə Qarabağın uzun illər davam edən işğalına son qoydu və Ermənistanın təcavüzü nəticəsində evlərini tərk etmiş 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qayıtmasına imkan yaratdı.

Torpaqların işğaldan azad edilməsi Qarabağda dağıntıların miqyasının necə böyük olduğunu, yüzlərlə yaşayış məntəqəsinin və minlərlə tikilinin erməni işğalçıları tərəfindən yer üzündən demək olar ki, tamamilə silindiyini üzə çıxardı. Zərər yalnız maddi obyektlərlə, tarixi abidələrlə və memarlıq inciləri ilə məhdudlaşmır. Təbii sərvətlərin amansızcasına istismar olunması, meşələrin qırılması, çay və göllərin çirkləndirilməsi nəticəsində regionun ekologiyasına böyük zərər vurulub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondunun həyata keçirdiyi "Karabakh.Center" layihəsi barədə məlumat verən R.Hacıyev qeyd edib ki, təqdimatı keçirilən internet resursu Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb. Bu internet resursunda toplanan çoxsaylı materiallar konkret nümunələr əsasında xalqımızın Qarabağdakı maddi-mədəni irsinə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır. Burada işğal altında olan ərazilərdəki dağıdılmış və ciddi ziyan dəymiş obyektlərin 10 mindən çox fotoşəkli və videogörüntüləri yer alır. Bütün fotoşəkillər və videolar saytın "Urbisid" bölməsində yerləşdirilib. Bölmədə memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş yüzlərlə fotoşəkli ilə də tanış olmaq mümkündür. Bu sahədə AZƏRTAC-ın fonda göstərdiyi dəstəyi yüksək dəyərləndirən R.Hacıyev internet resursunda agentliyin fotolarından geniş istifadə olunduğunu diqqətə çatdırıb.







Bildirilib ki, "Münaqişə" və "Cinayət" bölmələrində Ermənistan-Azərbaycan münaqişəsinin səbəb və nəticələri ilə bağlı peşəkar tədqiqatçı və jurnalistlər tərəfindən hazırlanmış eksklüziv analitik materiallar və tarixi sənədlər oxuculara təqdim olunur. İnternet resursu üzərində iş davam etdiriləcək, veb-sayt mütəmadi olaraq əlavə edilən yeni foto-materiallarla və analitik məqalələrlə zənginləşdiriləcək, dilbər guşəmiz Qarabağı dirçəldəcək bərpa işlərinə həsr olunmuş materiallara xüsusi yer veriləcək.

Bu internet resursu həm Cənubi Qafqaz mövzusu ilə maraqlanan geniş auditoriyanın, həm də burada təkcə maraqlı tədqiqat işləri deyil, eləcə də bizim "Kitabxana"da mövcud olan çoxsaylı orijinal mənbələr (o cümlədən arxiv sənədləri, kitablar, hesabatlar və s.) tapacaq peşəkar ekspertlərin diqqətini cəlb edəcək.

Tədbirdə Qarabağda törədilən dağıntıların və vurulan zərərin miqyasından bəhs edən "Qarabağda Urbisid" adlı video da nümayiş olunub.

İqtisadiyyat naziri, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının sədri Mikayıl Cabbarov deyib ki, qəhrəman Azərbaycan Ordusunun şücaəti nəticəsində işğaldan azad edilmiş Qarabağın dirçəlişi məsələsi müzakirə olunur. "Müharibə bizi bir çox sınaqlardan keçirdi. Biz bu sınaqlardan üzüağ çıxdıq. Torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən prosesin iştirakçısı olduq. Qarabağ Dirçəliş Fondunun fəaliyyəti müvəqqəti deyil, bu, daimi prosesdir. Çünki biz yalnız dağıdılmış maddi irsimizin bərpası kimi hədəflərlə məhdudlaşa bilmərik və daimi, dayanıqlı inkişafı hədəfləməliyik", - deyə M.Cabbarov bildirib.

Nazir qeyd edib ki, artıq yeni çərçivədə təqdim olunan "ağıllı şəhər", "ağıllı kənd" layihələrinin şahidiyik. Bərpa prosesi tarixi əhəmiyyət daşıyan abidələrimizin, sadəcə, qorunub saxlanılması ilə yanaşı, onun inkişaf etdirilməsi prosesini də əhatə etməlidir. Tarixdə Stalinqrad, Sarayevo, Xirosima hadisələri kimi faciələri xatırladan M.Cabbarov deyib: "Qarabağdakı hadisələr şüurlu şəkildə, onilliklər ərzində həyata keçirilən dağıntı prosesidir. İşğal zamanı təkcə tarixi abidələrimiz, infrastruktur obyektlərimiz, şəhər və kəndlərimiz dağıdılmayıb, regionun gözəl təbiətinə də çox böyük zərər vurulub. İnternet resursunda bu barədə də məlumatlar yer alır. Bu dağıntılar bizim hansı düşmənlə üz-üzə olduğumuzu göstərir".

Azərbaycan Prezidentinin rəhbərliyi ilə Qarabağda bərpa və rekonstruksiya işlərinin sürətlə davam etdiyini diqqətə çatdıran Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının sədri əmin olduğunu bildirib ki, tezliklə biz bu torpaqların çiçəklənməsinin şahidi olacağıq. "Karabakh.Center" internet resursu Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb. "Bu internet resursun müxtəlif dillərdə təqdimatı nəzərdə tutulur. Bu, təkcə onlayn versiya ilə məhdudlaşmamalıdır. Qarabağda baş verən dağıntıların miqyası dünyaya çatdırılmalıdır. Dağıdılmış abidələr bərpa olunacaq. Qarabağ Dirçəliş Fondu Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən bu layihələrə dəstək verməkdən qürur duyur", - deyə Mikayıl Cabbarov vurğulayıb.

Təqdimat mərasimində çıxış edən Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev deyib ki, fondun yaradılması doğma torpaqlarımıza böyük qayıdışın rəmzi ifadəsi hesab edilir. Bu məqsədlə Prezident İlham Əliyev fondun qarşısında ciddi vəzifələr qoyub.

Qarabağda 30 ildən çox davam edən işğalın nəticələri və hazırda aparılan bərpa işləri barədə dünya ictimaiyyətinə dolğun məlumatın çatdırılmasında müasir informasiya texnologiyalarının rolundan danışan nazir qeyd edib ki, bu baxımdan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılan "Karabakh.Center" internet resursu çox mühüm əhəmiyyət daşıyır.

"Ermənistanın törətdiyi ekoloji terror nəticəsində ətraf mühitə ciddi zərər vurulub, təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb. "Karabakh.Center" internet platforması bu həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasında, təbiətə belə amansız münasibətin ifşa edilməsində böyük rol oynayacaq. Eyni zamanda qarşımızda təbiət ərazilərinin bərpa edilməsi, onların işğaldan əvvəlki vəziyyətinə qaytarılması kimi böyük məsuliyyət dayanır", - deyə M.Babayev vurğulayıb.

Nazir qeyd edib ki, Qarabağ bölgəsi istər təbii sərvətləri, istərsə də biomüxtəlifliyi baxımından çox zəngindir. İşğaldan azad edilmiş ərazilərimizdə bioloji müxtəlifliyin bərpası, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi istiqamətində işlər aparılacaq. Hazırda "Qırmızı Kitab"ın 3-cü nəşrinin hazırlanmasına başlanılıb. Qarabağın fauna və flora növlərinin hazırkı statusunun qiymətləndirilməsi məqsədilə burada elmi-tədqiqat işləri aparılacaq. Bu proseslərin platformada geniş işıqlandırılması məqsədəuyğun olardı.

İşğaldan azad olunmuş ərazilərdə həm içməli su, həm kənd təsərrüfatı, həm də elektrik enerjisi istehsalı üçün istifadə edilə bilən zəngin su ehtiyatlarının olduğunu deyən nazir bildirib ki, burada yaradılmış su anbarlarının, ərazidən axan çayların hidroloji rejiminin öyrənilməsi məqsədilə müşahidələr bərpa ediləcək, su obyektlərinin səmərəli istifadəsi və mühafizəsi üzrə dövlət nəzarəti təşkil ediləcək.

Qeyd olunub ki, Azərbaycanın transsərhəd çayları Ermənistan tərəfindən davamlı çirklənməyə məruz qalıb və bu çirklənmələr bu gün də davam edir. Xüsusilə də Oxçuçayın hövzəsi "ölü zona"ya çevrilib. Qarabağın təbiətinə, ekologiyasına vurulan bu və digər zərər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılmasında, eləcə də beynəlxalq səlahiyyətli qurumlar tərəfindən Ermənistana təsir göstərilməsində "Karabakh.Center" internet resursunun imkanlarından geniş istifadə edilə bilər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Fatma Yıldırım Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən yaradılmış "Karabakh.Center"in əhəmiyyətindən danışıb. Bildirib ki, "Karabakh.Center" internet resursunun vasitəsilə Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlarımızda törədilən vandalizm aktları barədə məlumatları dünya ictimaiyyətinə çatdırmaq mümkün olacaq. Portalın təbliği işinə vətəndaş olaraq hər birimiz, bütün cəmiyyətimiz öz töhfəsini verməlidir. Qarabağ Dirçəliş Fondu azad olunmuş ərazilərimizin bərpası prosesində könüllülük və bərabərhüquqluluq prinsipi əsasında iştirak etmək istəyən bütün vətəndaşlarımız üçün vahid platformadır.

Sonra Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev layihənin ərsəyə gəlməsi və əhəmiyyəti barədə fikirlərini bölüşüb, "Karabakh.Center" internet resursunun videotəqdimatı olub.

## Azərbaycanın fövqəladə hallar naziri Kubanın ölkəmizdəki səfiri ilə görüşüb



İyunun 30-da Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Kuba Respublikasının ölkəmizdəki səfiri Alfredo Nieves Portuondo ilə görüşüb.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə yeni növ koronavirusla (COVID-19) mübarizə tədbirləri çərçivəsində ölkəmizdə fəaliyyət göstərən kubalı həkim briqadasının rəhbəri Dalsi Torres Avila da iştirak edib.

Nazir Kəmaləddin Heydərov Azərbaycan ilə Kuba arasında ikitərəfli münasibətlərin müxtəlif sahələr üzrə davamlı inkişaf etdiyini bildirib. Bu çərçivədə ölkələrimizin aidiyyəti qurumları arasında fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışan Kəmaləddin Heydərov bunun üçün böyük imkanların olduğunu bildirib, gələcəkdə kubalı gənclərin müasir standartlar səviyyəsində fəaliyyət göstərən FHN-in Akademiyasında təhsil almaq imkanlarını xüsusi vurğulayıb. Respublikamızda yeni növ koronavirusa qarşı ölkə rəhbərliyinin nəzarəti altında uğurlu mübarizə tədbirləri barədə məlumat verən Kəmaləddin Heydərov bu baxımdan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında dəvət olunmuş kubalı həkimlərin səmərəli fəaliyyətini qeyd edib.

Səfir Alfredo Nieves Portuondo səmimi görüşə görə təşəkkürünü bildirərək, Azərbaycan ilə Kuba arasında əməkdaşlığın yüksələn xətlə inkişafını qeyd edib. Diplomat fövqəladə halların idarə olunması sahəsində iki ölkənin müvafiq qurumlarının əməkdaşlıq imkanlarından danışıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

## "İMZA" İctimai Birliyinin təşkilatçılığı ilə videoformatda Birinci Qarabağ Beynəlxalq İqtisadi Forumu keçirilib

**"İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə iyunun 30-da videokonfrans formatında Birinci Qarabağ Beynəlxalq İqtisadi Forumu keçirilib.**




AZƏRTAC xəbər verir ki, forumda deputatlar, müvafiq dövlət orqanlarının nümayəndələri, yerli və beynəlxalq ekspertlər, dünyanın müxtəlif ölkələrindən parlament üzvləri, nüfuzlu ictimai-siyasi xadimlər və jurnalistlər iştirak ediblər.

Forumun İctimai Birliyin Beynəlxalq və ictimaiyyətlə əlaqələr departamentinin direktoru Elnar Məmmədlinin moderatorluğu ilə keçirilən birinci paneli "Qarabağın və işğaldan azad edilmiş digər ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi" mövzusuna həsr olunub.

Bu paneldə Milli Məclisin deputatı Vüqar Bayramov, Türkiyə Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan dostluq qrupunun rəhbəri Şamil Ayrım, ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza, Fransa Milli Assambleyasında Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Jerom Lamber, Pakistan parlamentinin üzvü Sərdar Ayaz Sadiq, İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi, Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədr müavini Mariam Laşxi, Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov və digərləri iştirak ediblər.

Tədbirin əvvəlində moderator Elnar Məmmədli Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun torpaqlarımızın 30 illik işğalına son qoyduğunu bildirib. Münaqişənin həllinin bölgənin yenidən bərpası, o cümlədən regionun iqtisadi resurslarının səmərəli şəkildə istifadəsi üçün yaxşı imkanlar yaradıb. Dövlət tərəfindən bu məqsədlə planlı addımlar atılır, mühüm layihələrə start verilib.

İclasda vurğulanıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qəbul etdiyi mühüm qərarlar Qarabağ bölgəsinin tezliklə bərpasına və böyük qayıdışın ən qısa zamanda baş tutacağına ümidləri artırır. Xatırladılıb ki, Prezident İlham Əliyev bərpa prosesində, ilk növbədə, dost və qardaş ölkələrin iştirak edəcəklərini bildirib və bu işə faktiki olaraq başlanılıb.

İştirakçılar işğaldan azad olunmuş ərazilərin bərpa və yenidən qurulmasında, infrastrukturun yaradılmasında beynəlxalq təcrübədən geniş istifadə olunmasının zəruriliyini qeyd ediblər. İclas zamanı Ermənilər tərəfindən basdırılmış çoxsaylı minaların yüz minlərlə məcburi köçkünün işğaldan azad olunmuş rayonlara qaytarılmasına ciddi maneə yaratdığı vurğulanıb. Müharibə başa çatandan sonra Ermənistanın mina xəritələrini verməməsi səbəbindən indiyədək 120-dən çox azərbaycanlının həlak olduğu və ya yaralandığı qeyd edilib. Ermənistanın mina xəritələrini təqdim etməsi ilə işğaldan azad olunmuş ərazilərin iqtisadi dirçəlişi və yenidən qurulması prosesinin sürətlənəcəyi, beləliklə, bunun nəinki Qarabağ regionun inkişafına, o cümlədən qonşu ölkələrinin iqtisadiyyatına töhfə verəcəyi bildirilib.

"İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin əməkdaşı Lalə Mustafanın moderatorluğu ilə keçirilən ikinci panel iclas isə "Qarabağın iqtisadi imkanları və gələcək planlar" mövzusuna həsr olunub.

Panel iclasda ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, Türkiyə Respublikasının Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç, BP şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, tanınmış siyasi ekspert Arye Qut, Milli Məclisin deputatı Ramin Məmmədov, Fransanın "Musulmans en France" xəbər portalının baş redaktoru Jan Mişel Brun, İsrailin "Hayom" qəzetinin jurnalisti Din Şmuel Elmas, Avropa Xəbər Agentliyinin İtaliya üzrə təmsilçisi, "Eurasiaticanews" portalının rəhbəri, jurnalist Karlo Marino və digərləri qatılıblar.

İclasda işğaldan azad edilmiş ərazilərin iqtisadi imkanları və bu imkanların regionun inkişafına verəcəyi töhfələrdən bəhs edilib. Bu baxımdan Zəngəzur dəhlizinin geosiyasi və geoiqtisadi əhəmiyyəti vurğulanıb. Zəngəzur dəhlizinin Azərbaycanın, o cümlədən region ölkələrinin maraqlarına tam cavab verdiyi qeyd edilib. Regionda nəqliyyat kommunikasiyalarının açılması ilə qarşılıqlı dialoq, etimad mühitinin formalaşacağı bildirilib. Zəngəzur dəhlizinin açılması yeni regional iqtisadi inkişafın vacib şərti kimi qiymətləndirilib.

Forum iştirakçıları Azərbaycanın işğaldan azad edilmiş rayonlarına və şəhərlərinə dəfələrlə səfər etdiklərini, Ermənistanın həmin ərazilərdə törətdikləri vandalizm və barbarlıq aktlarını, dağıntıları öz gözləri ilə gördüklərini bildiriblər. Məruzəçilər Qarabağ zonasının iqtisadiyyatının münaqişədən əvvəl Azərbaycanın ümumi iqtisadiyyatının inkişafına böyük töhfələri barədə danışıblar.

İştirakçılar eyni zamanda Qarabağın işğaldan azad edilmiş ərazilərinin vəd etdiyi iqtisadi potensialının təkcə Azərbaycan və region üçün deyil, həmçinin Ermənistanın iqtisadiyyatının da inkişafı üçün fürsət olduğu vurğulayıblar. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasında xarici ölkələrə məxsus çoxsaylı şirkətlərin iştirak etməsinə marağın olması tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilib.

Tədbir çərçivəsində həmçinin dünya şöhrətli fotoqraf Rza Diqqətinin Qarabağa həsr olunmuş sərgisi nümayiş etdirilib. Vətən müharibəsinin taleyüklü günlərində Parisdən Azərbaycana gələn dünya şöhrətli fotojurnalist Rza Diqqəti həmişə olduğu kimi, bu dəfə də Qarabağ həqiqətlərini dünyaya sənətinin dili ilə çatdırıb. O, Qarabağda və ölkəmizin digər yerlərində müharibə vaxtı və sonra yaşananları fotolara həkk edib, KİV-ə müsahibələr verib, telekanallara dəvət olunub.

Qeyd edək ki, ümumiyyətlə, Qarabağın Azərbaycan iqtisadiyyatına qısa müddətdə reinteqrasiyasının, bu proses başa çatdıqdan sonra isə ölkədə iqtisadi fəallığın daha da artacağına heç bir şübhə yoxdur. Bərpa prosesinə xüsusi maraq göstərən ölkələrin və şirkətlərin sayının artması, uğurla həyata keçirilən infrastruktur layihələri onu deməyə əsas verir ki, yaxın perspektivdə Qarabağ bölgəsi inkişaf mərhələsinə qədəm qoyacaq. Bu baxımdan mövzunun əhəmiyyətini, aktuallığını, prosesə marağı daha da artırmaq üçün onun təbliğatının əhəmiyyətini nəzərə alan "İMZA" İctimai Birliyi Qarabağ Beynəlxalq İqtisadi Forumunu keçirməyi qərara alıb.

## Rusiya Azərbaycan və Türkiyə prezidentlərinin 3+3 formatında əməkdaşlıq mexanizminin yaradılması təklifini dəstəkləyir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri Türkiyə ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çərçivəsində reallaşıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə dünən apardıqları danışıqların yekunlarına dair mətbuat konfransında bildirib.

Rusiyalı nazir qeyd edib ki, danışıqlar zamanı Ermənistan ilə Azərbaycan arasında barışığa, münasibətlərin normallaşmasına kömək etmək barədə razılıq əldə olunub: "Həm ermənilərin, həm azərbaycanlıların, həm də digər millətlərdən olan hər bir insanın bu torpaqda mehriban qonşular kimi yanbayan yaşaması üçün şəraitin yaradılmasına yardım etmək lazımdır. Fikrimizcə, bu halda istənilən məsələni, o cümlədən siyasi xarakterli məsələləri həll etmək daha asan olacaq".

Rusiya XİN rəhbərinin sözlərinə görə, əməkdaşlığın istiqamətlərindən biri də bu regionda ticari-iqtisadi, nəqliyyat əlaqələrinin bərpasıdır.

"Rusiya prezidentlər Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin 3+3 formatda regionun inkişafına yardım mexanizmi yaratmaq təklifini dəstəkləyir. Üç Zaqafqaziya ölkəsi və üç qonşu - Rusiya, Türkiyə və İran. Bu gün biz bu barədə danışdıq və ilkin dövr üçün yaxşı planlar var", - deyə S.Lavrov bildirib.

O, əlavə edib ki, Rusiya Qarabağ nizamlanması üzrə sıx və səmərəli əməkdaşlıqdan məmnundur.

## Tarif tənzimlənməsi əhalinin ailə büdcəsinə mənfi təsir göstərməyəcək

### Bunun nəticəsində əldə olunan vəsait vətəndaşların sosial rifahının daha da yüksəldilməsinə yönəldiləcək

*Əvvəli 1-ci səh.*

Tarif dəyişikliyinin aparılmasının bir sıra zəruri səbəbləri var. Ötən dövr ərzində ölkədə təbii qazın istehlakı artıb, həyata keçirilən infrastruktur layihələri nəticəsində qaz təchizatının əhatə dairəsi genişlənib, abonentlərinin sayı 18 faizə yaxın çoxalıb. Nəticədə dövlətin xərcləri xeyli dərəcədə artıb və 1000 kubmetr təbii qazın hasilat və istehlakçıya çatdırılma xərci 2020-ci ildə 160 manat təşkil edib. Xatırladaq ki, təbii qaz üzrə son tarif tənzimlənməsi 2016-cı ilin noyabr ayının 28-də aparıllıb və ötən müddət ərzində ölkədə və dünyada müşahidə edilən tendensiyalara baxmayaraq, Azərbaycanda təbii qazın qiymətində dəyişiklik edilməyib.

Tarif dəyişikliyinin bir sıra müsbət təsirləri olacaq. Belə ki, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldiləcək. Dövlət büdcəsindən asılılıq, subsidiyalar aradan qaldırılacaq. Məqsəd həmçinin büdcədə sərbəstləşən vəsaitin sosialyönümlü tədbirlərə yönəldilməsi, yeni investisiya qoyuluşlarının təmin edilməsidir. Dəyişikliklərin nəticəsində eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin tam ödənilməsi imkanı yaradılacaq. "Azəristiliktəchizat" ASC-nin imkanları genişləndiriləcək, aztəminatlı əhali davamlı və keyfiyyətli şəkildə istilik xidməti ilə təmin ediləcək.

Bəzi rəqəmlərin digər ölkələrdəki tariflərlə müqayisəsi yerinə düşər. 1 kubmetr təbii qazın tarifinin əhali üzrə Azərbaycanda yuxarı həddi 20 qəpik olduğu halda, Gürcüstanda 29,1 qəpikdir. Belarusda bu göstərici 34,8, Rusiyada 16,6 qəpik təşkil edir.

Azərbaycanda 1 kubmetr təbii qazın tarifinin qeyri-əhali abonenti üzrə yuxarı həddi 20 qəpikdir. Türkiyədə həmin göstərici 50,8, Ukraynada 26,3, Belarusda 79,6, Rusiyada 17,7 qəpik həcmində müəyyənləşdirilib.

***F.SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan-Türkiyə birgə təlimlərində təlim-döyüş tapşırıqları uğurla icra edilir



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Bakıda keçirilən "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlimlərində növbəti təlim-döyüş tapşırıqları icra edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin ilkin mərhələsində şəxsi heyət, silah və döyüş texnikası cəmləşmə rayonuna çıxarılıb və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi üçün hazır vəziyyətə gətirilib.

Müxtəlif mərhələlər üzrə keçirilən təlimlərdə artilleriyaçılar tank bölmələrinin dəstəyi ilə şərti düşmənin canlı qüvvəsi və zirehli texnikasının məhv edilməsi üzrə tapşırıqları yerinə yetiriblər.

## Azərbaycanın hərbi pilotları "Anadolu Qartalı - 2021" təlimində uğurla iştirak edirlər

**Türkiyə Respublikasının Konya şəhərində keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimi davam edir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi pilotları şərti düşmənin hava hücumundan müdafiə vasitələrini məhv edib və havada üstünlüyü təmin etməklə onun yerüstü hədəflərinə aviazərbələrin endirilməsi üzrə tapşırıqları uğurla yerinə yetiriblər.

## Media nümayəndələri Konyada keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimlərini izləyiblər

**Türkiyənin Konya şəhərində müxtəlif ölkələrdən və NATO-dan olan uçuş heyətlərinin iştirakı ilə keçirilən "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimlərinin kütləvi informasiya vasitələrinə açıq hissəsinə start verilib.**

AZƏRTAC xəbər verir ki, hazırda "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimləri uğurla davam edir.

Azərbaycan Hərbi Hava Qüvvələri ilk dəfədir ki, Konya təlimlərinə təkcə pilotlarla deyil, döyüş təyyarələri ilə də qatılıb.

Bu gün "Anadolu Qartalı - 2021" beynəlxalq taktiki-uçuş təlimləri ilə bağlı brifinq keçiriləcək, "Türk Yıldızları" qrupu "TÜRKSOLO" uçuşları nümayiş etdirəcək.

Təlimlərin məqsədi Türkiyə və xarici aviasiya birliklərinin ortaq hərəkət etmək imkanlarını və qabiliyyətlərini inkişaf etdirmək, birliklər arasında qarşılıqlı dəstəyi artırmaq, yeni texnika və taktikaların sirlərinə yiyələnməkdir.

İyunun 21-də start götürən taktiki-uçuş təlimlərində Azərbaycan, Pakistan, Qətər və NATO ilə bərabər, Türkiyə Hərbi Hava və Dəniz Qüvvələrinin pilotları da iştirak edirlər.

Təlimlər iyulun 2-də başa çatacaq.

## Tarif Şurasının "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Qərarında dəyişiklik olunub

Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının iyunun 30-da keçirilən iclasında "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" 2016-cı il 28 noyabr tarixli 17 nömrəli Qərarda dəyişikliklər edilib.

AZƏRTAC Tarif (qiymət) Şurasına istinadla xəbər verir ki, "Elektrik enerjisinin ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2016-cı il 28 noyabr tarixli 17 nömrəli Qərarının 1-ci hissəsi ilə təsdiq edilmiş əlavənin cədvəl bölməsinin 2.1-ci sətrində "və məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzləri" sözləri çıxarılıb və cədvəl bölməsinə aşağıdakı məzmunda 2.2-ci sətir əlavə edilib:

| | | |
|---|---|---|
| 2.2. | Enerji təchizatı birbaşa 35 və 110 kV-luq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVts-dan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzləri | |
| 2.2.1. | Gündüz vaxtı (saat 08.00-dan 22.00-a qədər) | 7,3 |
| 2.2.2. | Gecə vaxtı (saat 22.00-dan 08.00-a qədər) | 3,5 |

Bu qərar 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

## Tarif Şurası təbii qaz tarifi ilə bağlı qərar qəbul edib

İyunun 30-da Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. İclasda Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılaraq müvafiq qərar qəbul edilib.

Tarif (qiymət) Şurasının Katibliyindən AZƏRTAC-a bildirilib ki, Dövlət Neft Şirkəti Şuraya müraciət edərək ölkədə təbii qazın topdansatış və pərakəndə satış qiymətlərinin artırılmasını təklif edib. Müraciətdə təbii qazın tarifinə yenidən baxılmasına səbəb kimi istehlakın artması, qaz təchizatının əhatə dairəsinin genişləndirilməsi və abonentlərinin sayının 18 faizədək artması nəticəsində xərclərin yüksəlməsi göstərilir. Əhali üzrə tarifin aşağı olması və son tarif tənzimlənməsinin qüvvəyə mindiyi 2017-ci illə müqayisədə ölkəmizdə bir əhali abonenti üzrə istehlakın həcminin təxminən 1,3 min kubmetrdən 1,6 min kubmetrə, ümumi istehlak həcminin isə 2,7 milyard kubmetrdən 3,7 milyard kubmetrə yüksəlməsi qaz təchizatı fəaliyyəti üzrə zərərin daha da artması ilə nəticələnir ki, həmin məbləğ dövlət büdcəsi hesabına qarşılanır. Xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması və investisiya qoyuluşlarının təmin edilməsi, eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin tam ödənilməsi üçün tariflərin artırılmasına zərurət yaradıb.

Tarif (qiymət) Şurasının iclasında aparılan müzakirələrdə təklif olunan müxtəlif tarif artımı variantları nəzərdən keçirilib. Təklif edilən modellər dövlətin iqtisadi siyasətinə uyğun olaraq enerji təhlükəsizliyinin dayanıqlılığının təmin olunması, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi, istehlakçı və istehsalçı maraqlarının uzlaşdırılması, iqtisadi əlverişlilik, sosialyönümlülük, qaz təchizatı sahəsində bazar münasibətlərinin mərhələli şəkildə formalaşdırılması və dövlət büdcəsindən subsidiyalaşdırmanın aradan qaldırılması, təbii qazın digər ölkələr üzrə qiymətləri və sair kimi məsələlər nəzərə alınmaqla dəyərləndirilib.

Şura üzvlərinin yekdil qərarı ilə dövlətin həyata keçirdiyi sosialyönümlü siyasət əsas götürülərək əhalinin aztəminatlı hissəsinin mənafelərinə uyğun olan modelə üstünlük verilib. Belə ki, tarif tənzimləməsində optimal yanaşma tətbiq olunmaqla əhali abonentlərinin təxminən 51 faizini (5 milyon nəfər) əhatə edən istehlakçılar üzrə təbii qazın illik istehlak həcminin 1200 kubmetrədək (1200 kubmetr daxil) olan hissəsi üçün tarif dəyişdirilməyib və hazırkı (1 kubmetr üçün 10 qəpik) səviyyədə saxlanılıb. İstehlak edilən qazın 1200-2500 kubmetr (2500 kubmetr daxil) olan hissəsi üçün 1 kubmetr üçün 20 qəpik, 2500 kubmetrdən çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib. Qeyd edilməlidir ki, əhali abonentləri üçün müəyyən olunan tarif sistemi böyük sahəyə malik yaşayış evlərini daha qənaətcil istilik sistemlərindən istifadəyə sövq edəcək.

İclasda aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin artırılmasının həmin təbəqənin gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılmasının önəmi qeyd edilib.

Qəbul edilmiş tarif artımı modeli bir sıra sahələr üçün güzəştli tarif sisteminin saxlanılmasını nəzərdə tutur. İqtisadi dirçəlişin təmin edilməsi məqsədilə sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi bu mərhələdə dəyişdirilməyərək mövcud 20 qəpik səviyyəsində saxlanılıb. Həmçinin təbii qazdan istifadə edilməklə hasil olunan elektrik enerjisi üzrə tarif artımına yol verməmək üçün elektrik stansiyalarına verilən təbii qazın tarifi cəmi 1 qəpik artırılmaqla 12 qəpikdən 13 qəpiyə dəyişdirilib.

Təbii qaz əsasında fəaliyyət göstərən istilik təchizatı sisteminin fəaliyyətinin dayanıqlığının təmin edilməsi, habelə ölkə vətəndaşlarının istilik sistemindən istifadə xərclərinin optimallaşdırılması məqsədilə "Azəristiliktəchizat" ASC və yaşayış binalarının məhəllə qazanxanaları üzrə təbii qaz tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

Bununla yanaşı, ekoloji təmiz yanacaq növlərinə keçidi stimullaşdırmaq və sıxılmış təbii qazdan (CNG) istifadə edən ictimai nəqliyyat vasitələrinin xərclərini azaltmaq məqsədilə qazın satışını həyata keçirən qazdoldurma məntəqələrinə verilən təbii qazın tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

Digər sahələrdə (ticarət, xidmət və sair) rentabelli fəaliyyət təbii qazın tarifindən daha az asılı olduğu üçün tariflər 5 qəpik artırılıb.

Qərar 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

Qeyd edək ki, koronavirus pandemiyasının yaratdığı iqtisadi məhdudlaşmalar, habelə dünya ölkələrində ayrı-ayrı istehlak məhsullarının istehsal həcmlərinin aşağı düşməsi dünya iqtisadiyyatına və beynəlxalq bazarlara öz təsirini göstərir. Son bir ildə dünya bazarlarında bütün əsas ərzaq məhsulları üzrə qiymətlər davamlı şəkildə artmaqdadır. Dünya enerji bazarlarında müşahidə olunan qiymət artımları bu prosesi daha da sürətləndirir. Xüsusilə təbii qazın dünya bazar qiymətlərinin artması qeydə alınır. Qiymətlərin artıma doğru istiqamətlənməsi nəticəsində bir çox ölkələrdə təbii qazdan istifadə edən sahələr üçün tariflər dəyişib, o cümlədən istehlakçı kateqoriyaları üçün kommunal xərclər artıb.

Məlumat üçün bildirək ki, 2020-ci ildə 1 kubmetr təbii qazın tarifi əhali abonenti üzrə Ankarada (Türkiyə) orta hesabla 32 qəpik, Kiyevdə (Ukrayna) 32,6 qəpik təşkil edib. Hazırda Ankarada 32-40 qəpik, Kiyevdə isə 54 qəpik səviyyəsindədir. Yeni müəyyənləşdirilmiş tariflər bəzi ölkələrin tarifləri ilə müqayisədə yenə aşağıdır. Belə ki, 1 kubmetr təbii qazın tarifi əhali üzrə Gürcüstanda 19,7-29,5 qəpik, Belarusda 9,2-34,2 qəpik, Rusiyada 11,9-16,5 qəpik arasında dəyişir. 1 kubmetr təbii qazın tarifi qeyri-əhali abonenti üzrə isə hazırda Türkiyədə orta hesabla 35-49 qəpik, Ukrayna 22-26 qəpik, Belarusda 21,9-78,2 qəpik, Rusiyada 15,3-18,2 qəpik arasında dəyişir.

Tarif dəyişikliyi nəticəsində qaz hasilatı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığı tədricən azalacaq, büdcədə sərbəstləşən vəsait sosialyönümlü tədbirlərə yönəldiləcək.

Tarif tənzimlənməsindən sui-istifadəyə yol verilməməsi üçün nəzarət tədbirləri həyata keçiriləcək.

İclasda həmçinin yeni dövlət qeydiyyatına alınan 247 dərman vasitəsinin qiyməti də təsdiq edilib.

Qeyd edək ki, ticarət adı, farmasevtlik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla indiyədək topdan və pərakəndə satış qiymətləri və qüvvəyə minmə tarixi təsdiq edilən 12689 dərman vasitəsinin tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (http://tariff.gov.az/%22http://www.tariff.gov.az/%22) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.-az//%22documents/DVA.pdf/%22) yerləşdirilib.

Qərarla Tarif (qiymət) Şurasının rəsmi saytının (http://tariff.gov.az/-%22http://www.tariff.gov.az/%22) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

Jurnalist araşdırması

# Min-min doğulacağıq!..

## Azərbaycanda demoqrafik siyasətlə sosial siyasət yanaşıdır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev ölkəmizdə demoqrafik vəziyyətin müsbət olduğunu dəfələrlə vurğulamışdır. Əhalinin sayının artmasını ümumi iqtisadi inkişafın təzahürü kimi dəyərləndirən dövlət başçısı, eyni zamanda, bununla bağlı qarşıda böyük vəzifələr dayandığını qeyd etmişdir. Gələcəkdə bizə yeni məktəblərin, uşaq bağçalarının, iş yerlərinin lazım olacağını nəzərə çatdırmışdır: "Görün, müstəqillik illərində əhalimiz nə qədər artıb. Bu, bizim gücümüzdür, gücümüzü artırır. Eyni zamanda qarşımıza vəzifələr qoyur".

### Xoş gəlmisən bu dünyaya sən...

...Paytaxtın mərkəzi klinikalarının birinin qarşısında xeyli insan toplaşmışdı. Əllərdə gül-çiçək dəstələri, oyuncaqlardan və uşaq paltarlarından tutulmuş xonçalar vardı. Küçədən ötüb-keçənləri bu mənzərə heç də təəccübləndirmirdi. Çünki o klinikada şəhid balası dünyaya gəlmişdi. Elliklə qarşılayırdılar qəhrəmanın yadigarını. Doğmalar, aidiyyəti qurumların nümayəndələri, balacanın atasının döyüş dostları ilə bərabər burada kənar adamlar da vardı. Üzlərdə sevinclə kədər birləşmişdi...

Çox qürurlu, sevincli günlər yaşatdı bizə Qələbəmiz! Bax, belə həyəcanlı və kövrək duyğular da... Atasının ruhu uca şəhidlik zirvəsindən boylanan körpə qundaqlarını həmiliqla qucaqladıq, bağrımıza basdıq. Bu da birliyimizin daha bir rəmzidir. Düşmən baxıb xar olur. Yağının bağrı yarılır. Çünki artırıq, çoxalırıq! Artacağıq və çoxalacağıq! Min-min doğulacağıq! Torpaq yolunda canından keçənlərin yeri boş qalmayacaq!

Azərbaycanın hər yerində oğlan uşaqlarına qəhrəman şəhidlərimizin adlarının verilməsi də yeni yaranmış ibrətamiz ənənədir. İndi evlərdə neçə-neçə Polad, Mübariz, Fərid, Elşad, Orxan, Xudayar... böyüyür...

Yeni doğulanlardan söz düşmüşkən, Dövlət Statistika Komitəsinin son məlumatlarını nəzərə çatdıraq. Bu ilin birinci rübü ərzində Azərbaycanda 29 min 484 körpə anadan olmuş və əhalinin hər 1000 nəfərinə bu göstərici 11,9 təşkil etmişdir. Keçən il isə 126 min 571 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 12,7 olmuşdur. Beləliklə, ötən il ərzində ölkə əhalisinin sayı 52 min 25 nəfər və ya 0,5 faiz artaraq bu il yanvar ayının 1-i vəziyyətinə 10 milyon 119 min 133 nəfərə çatmışdır. Hazırda əhalinin sayı 10 milyon 130 min 114 nəfəri ötmüşdür. Xatırladaq ki, 10 milyonuncu vətəndaşımız 2019-cu il aprelin 6-da anadan olmuş və bu hadisə ölkəmizdə dövlət səviyyəsində bayram kimi qeyd edilmişdir.

Azərbaycan əhalisinin sayı əsasən təbii artımla və nisbətən miqrasiya yolu ilə çoxalır. Təbii artım yeni doğulanların sayının dünyasını dəyişənlərin sayını üstələməsi ilə yaranır. Ölkəmizdə son illər anadan olan uşaqların sayı həyatdan köçən insanların sayını iki dəfədən çox üstələyir.

Azərbaycanda təkuşaqlı ailəyə o qədər də tez-tez rast gəlinmir. Belə ki, gənc ailələrin əksəriyyətində bir qayda olaraq ən azı iki uşaq böyüyür. Üç və daha çox uşağı olan ailələr də az deyil. Bu isə iqtisadi terminlə ifadə etsək, əhalinin təkrar istehsalının təmin olunması deməkdir.

Qeyd edək ki, əhalinin təbii artım göstəriciləri heç də bütün ölkələrdə qənaətbəxş deyil. Bir sıra ölkələrdə əhalinin sayı kənardan gələnlərin hesabına artır və müsbət olmayan bu hal keçmiş SSRİ məkanının bəzi yerlərində də müşahidə edilir. Həmin ölkələrdə bu problemi aradan qaldırmaq üçün xüsusi dövlət proqramları qəbul olunur. Fransa, Çexiya, Macarıstan, Avstriya, Danimarka kimi ölkələrdə isə həmin istiqamətdə demoqrafik siyasət əsasən iqtisadi vasitələrdən istifadə olunmaqla həyata keçirilir ki, buraya uşaqlara qulluq üçün yardım, gənc ailələrə güzəştli kreditlərin ayrılması, doğumdan sonrakı ödənişli dövrün uzadılması və s. daxildir.

Lakin təbii artımın yüksək göstəricilərindən narahat olan ölkələr də var. Çin, Hindistan, Banqladeş, Nigeriya və Vyetnam kimi ölkələr bu sahədə ciddi ailə planlaşdırılması siyasəti həyata keçirirlər.

### Təbiətin yaratdığı tarazlığı pozmaq olmaz

Bu və ya digər ölkənin demoqrafik vəziyyətini öyrənərkən vacib məsələlərdən biri kimi doğulan uşaqların cinsi və yaş qrupları üzrə rəqəmlərə diqqət yetirilir. Hazırda Azərbaycanda doğulan hər 100 körpədən 53 oğlan, 47-si qızdır. Doğulanların cins strukturunda oğlan uşaqlarının artımı 1990-cı illərin əvvəllərindən müşahidə olunur.

Dünyaya gələn körpələr arasında qızların xüsusi çəkisi 2000-ci ildəki 46,5 faizdən 2009-cu ildə 46 faizədək azalıb. 2013-cü ildə yeni doğulanlar arasında qızların sayı 46,4 faizədək, sonrakı dövrdə bir qədər də artsa belə, oğlanların sayı yenə də çox olaraq qalır. Yeni hazırda anadan olan uşaqların 53 faizi oğlandır. Başqa sözlə, hazırda hər 100 doğulan qıza 115 oğlan düşür. Bioloji norma göstəricisi isə 105-107 təşkil edir.

Bu səbəbdən də ölkədə qadınların sayı azalır. Xatırladaq ki, İkinci Dünya müharibəsindən əvvəl Azərbaycan əhalisinin ümumi sayında kişilərin xüsusi çəkisi qadınlardan çox olsa da, sonrakı illərdə əhalinin ümumi sayında qadınlar həmişə üstünlük təşkil edib. Lakin 2003-cü ildən etibarən kişilərin sayı artmağa başlayıb. Aydın məsələdir ki, əhalinin cins strukturunun dəyişməsinin başlıca səbəbi yeni doğulanların cins nisbətinin pozulmasıdır.

Hazırda ölkə əhalisinin 49,9 faizini kişilər, 50,1 faizini qadınlar təşkil edir. Çox uzağa getməyək. 2008-ci ildə qadınların sayının 51 faiz, 2012-ci ildə 50,4 faiz, 2015-ci ildə 50,2 faiz olduğunu və indi artıq 50 faizə çatmağa az qaldığını qeyd etsək, doğulacaq qız uşaqlarına hələ ana bətnində ikən edilən sui-qəsdin hansı fəsadlara gətirib çıxaracağını əvvəlcədən görə bilərik.

Dünyaya göz açan oğlan və qız uşaqları arasında demoqrafik balansın pozulmasının əsas səbəbi hamıya bəllidir. Bu, selektiv abortlardır. Qızların sayının süni surətdə azaldılması insanlıq baxımından böyük günah olmaqla bərabər, həm də yaxın gələcəkdə baş verəcək ciddi demoqrafik pozuntuların təməlini qoyur. Belə çıxır ki, Azərbaycan çətin bir sosial problemlə üzləşsə, xaricdən gəlin "idxal etməli" ola bilər.

Uşağın ana bətnində cinsinin müəyyənləşdirilməsinə maraq və bundan törəyən fəsadlar bir çox ölkələrdə mövcuddur. Bəzi ölkələrdə bu hal çox ciddi xarakter aldığından, dövlət məsələyə müdaxilə etməli olub.Yəni körpənin cinsinin əvvəlcədən öyrənilməsinə qadağalar qoyulub.

Fikrimizcə isə, məsələnin yoluna qoyulmasının ən düzgün yolu insanların özlərinin şüurunda müsbət dəyişikliklərin baş verməsidir.

### Miqrasiyanın saldosu yenə də müsbətdir

Miqrasiya əsas demoqrafik göstəricilərdən biridir və Azərbaycanda bu məsələyə də xüsusi diqqət göstərilir. Odur ki, artıq 20 ildən çoxdur miqrasiyanın saldosu müsbət olaraq qalır.

Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəllərində məlum hadisələrin Azərbaycan iqtisadiyyatına vurduğu zərbənin ağırlığı özünü, ilk növbədə, insanların güzəranında göstərmişdi. Erməni faşistlərinin bir milyon soydaşımızı yurd-yuvalarından didərgin salması bir yana, ölkəmizin o dövrdəki rəhbərlərinin səbatsızlığı ucbatından digər şəhər və bölgələrimizdə də insanların yaşayış şəraiti kəskin şəkildə pisləşmişdi. Kortəbii miqrasiya tüğyan edirdi. Kiçik bir kənddən onlarca kişi iş, dolanışıq axtara-axtara yad məmləkətlərə getmişdi. Bir çoxları arvad-uşağını da özü ilə Rusiyaya, Ukraynaya, Türkiyəyə, Qazaxıstana aparmışdı.

Ölkədə, eyni zamanda, kənddən şəhərə axın prosesi gedirdi. Əsasən də paytaxta axın vardı. İnsanlar ailəliklə Bakıya üz tutur, amma dolanışıqları burada da yaxşı olmurdu. Belə ki, şəhərdə kiçik alverlə məşğul olur, ya da alababat bir iş tapır, nimdaş mənzil kirayələyib yaşayırdılar.

1990-cı illərin ikinci yarısından ölkəmiz inkişaf yoluna qədəm qoysa da, hələ xeyli müddət miqrasiyanın saldosu mənfi oldu. Lakin 2000-ci illərin əvvəllərindən vəziyyət tədricən yaxşılığa doğru dəyişməyə başladı. Məsələn, 2002-ci ildə Azərbaycanı tərk edənlərin (emiqrantların) sayı 4300 idisə, 2003-cü ildə xeyli azalaraq 3800 oldu. Gələnlərin (immiqrantların) sayı isə iki dəfədən çox artdı. Belə ki, 2002-ci ildə Azərbaycana daimi yaşamaq üçün 1200 nəfər gəlmişdisə, 2003-cü ildə onların sayı 2500-ə çatdı.

2004-cü ildən regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində həyata keçirilən ardıcıl tədbirlər sayəsində Azərbaycanın bütün bölgələrinin siması dəyişdi. Rayonlarda yeni müəssisələr istifadəyə verildi, çoxsaylı iş yerləri açıldı, sosial infrastruktur yaradıldı. Bu gün başqa ölkəyə iş axtarmağa gedənlər, demək olar ki, yoxdur. Əksinə, vaxtilə gedənlərin çoxu artıq geriyə qayıdıb. Bunu Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin məlumatlarına əsasən Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər də təsdiqləyir. Məsələn, 2012-ci ildə Azərbaycanda immiqrantların sayı 2200 nəfər olub. Emiqrantların sayı isə cəmi 300 nəfər təşkil edib. Növbəti, 2013-cü ildə Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı eyni məqsədlə digər ölkələrə gedənlərin sayından 4 dəfə çox olub. 2014-cü ildə Azərbaycana biryolluq 1900 nəfər gəlib və ölkəni birdəfəlik cəmi 800 nəfər tərk edib. Növbəti illərin müsbət saldosunu göstərməklə bu siyahını uzatmaq da mümkündür.

Son rəqəmlərə nəzər saldıqda da bunu aydın görürük. Belə ki, ötən il daimi yaşamaq üçün Azərbaycana 1669 nəfər gələn və Azərbaycandan 568 nəfər gedən qeydə alınıb, ölkə üzrə miqrasiya saldosu müsbət 1101 nəfər təşkil edib. Cari ilin yanvar-mart ayları ərzində isə daimi yaşamaq üçün Azərbaycana 587 nəfər gələn, Azərbaycandan isə cəmi 76 nəfər gedən olub.

Bu da onu göstərir ki, ölkəmizin iqtisadi inkişafı, neft sektorunda, eləcə də qeyri-neft sektorunda artmaqda olan iqtisadi fəallıq immiqrasiya axınlarının intensivləşməsilə nəticələnmişdir. Tədricən Azərbaycan həm də əcnəbi işçilərin təyinat ölkəsinə çevrilməkdədir.



Hazırda əhalinin ümumi sayının 53 faizi şəhər, 47 faizi kənd sakinləridir. Cari ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 22,7 faizi Bakı şəhərində, 20,4 faizi Aran, 12,9 faizi Gəncə-Qazax, 9,4 faizi Lənkəran, 6,8 faizi Yuxarı Qarabağ, 6,2 faizi Şəki-Zaqatala, 5,7 faizi Abşeron, 5,5 faizi Quba-Xaçmaz, 3,2 faizi Dağlıq Şirvan, 2,6 faizi Kəlbəcər-Laçın iqtisadi rayonlarının payına düşüb. Kəlbəcər-Laçın demişkən, tezliklə işğaldan azad olmuş bölgələrimizə Böyük Qayıdış olacaq. Bütün Azərbaycan elləri daha şən və firavan yaşayacaq.

### Ölüm sevinməsin qoy...

Yeddi il bundan əvvəl Prezident İlham Əliyev çıxışlarının birində ölkəmizdə demoqrafik vəziyyətin yaxşı olduğunu yenə də vurğulamış və demişdir: "Azərbaycan əhalisi artır və artacaq. Bu da öz növbəsində gələcəkdə münaqişənin həlli üçün və ümumiyyətlə, regional mənzərə üçün əsas rol oynayacaq". Uzaqgörən Prezidentimizin bu sözləri də həyatda öz təsdiqini tapdı. Vaxtı, məqamı gələndə 10 milyonluq xalq öz rəhbəri ətrafında sıx birləşərək dəmir yumruğa döndü. İgid oğullar isə "Vətən!" deyərək düşmənlə savaşa atıldılar. Bəlkə də heç bir müharibədə görünməmiş hal idi ki, bircə nəfər belə, naxələf çıxan, fərarilik edən olmadı. Təbii ki, şəhidlərimizin sayı 2020-ci ilin ölüm statistikasında öz əksini tapdı. Ancaq mərdlər Vətən yolunda ölümü özləri üçün şərafət və səadət sanarlar...

Koronavirus pandemiyası da bizi az sınağa çəkmədi. Dövlətin həyata keçirdiyi ardıcıl tədbirlər xalqımıza bu bəladan minimum itkilərlə çıxmağa imkan verdi. Lakin təəssüf ki, dünyanı bürüyən müdhiş virus ölkəmizdə də neçə-neçə insan həyatına son qoydu.

Beləliklə, ötən il Azərbaycanda 75 min 647 ölüm halı qeydə alındı və əhalinin hər 1000 nəfərinə ölümün səviyyəsi 7,6 təşkil etdi. Bu ilin birinci rübündə isə ölkədə 19 min 14 nəfər dünyasını dəyişib, hər 1000 nəfərə ölüm səviyyəsi əmsalı 7,7 olub.

Məlum səbəblərdən baş verən son göstəriciləri çıxmaq şərti ilə, artıq neçə illərdir Azərbaycanda ölümün səviyyəsi azalır, yaxud eyni səviyyədə qalır və bu, bir sıra səbəblərdən irəli gəlir.

Prezident İlham Əliyev "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" deyir. Bu sözlərin arxasında Azərbaycan xalqının gündən-günə yüksələn rifah halını, dövlətin öz vətəndaşına sonsuz qayğısını ifadə edən böyük bir həqiqət dayanır. Bu həqiqəti bir çox faktlar təsdiqləyir ki, onlardan biri də son illərdə ölkədə ölüm hallarının azalmasıdır. Elə buradaca bir daha vurğulayaq ki, Azərbaycanda doğulanların sayı dünyasını dəyişənlərin sayından 2 dəfə çoxdur.

Ölkədə ölümün səviyyəsi ötən əsrin 90-cı illərinin birinci yarısında ermənilərin Azərbaycana hərbi təcavüzü nəticəsində artsa da, atəşkəs əldə olunduqdan sonra azalaraq sabitləşib. Belə ki, əhalinin hər 1000 nəfəri hesabı ilə ölənlərin sayı 1990-cı ildəki 6,1-dən 1995-ci ildə 6,7-yə qədər artıb, sonrakı illərdə azalaraq 2013-cü ildə 5,8 olub. 2019-cu ildə isə hər 1000 nəfərə hesabı ilə ölüm səviyyəsi əmsalı bundan da aşağı - 5,6 olub.

Ölümün səviyyəsinin aşağı düşməsinin, yaxud sabit qalmasının səbəblərindən biri əlbəttə ki, insanın gün-güzəranının yaxşılaşmasıdır. Bu mənada əhalinin gəlirlərinin çoxalması, əməkhaqqının getdikcə yüksəlməsi, pensiya və müavinətlərin artması böyük rol oynayır.

Lakin bu dünya gəlimli-gedimlidir. Necə deyərlər, bir gün doğulan bir gün də dünyadan köçür. Bəs ölkəmizdə ölümə əsasən hansı hallar səbəb olur? Diqqət yetirdikdə görürük ki, ən çox tənəffüs, əsəb və qan dövranı sistemlərinin, həzm orqanlarının xəstəlikləri, yeni törəmələr, eləcə də yoluxucu və parazitar xəstəliklər qeydə alınır. Xatırladaq ki, dünyanın bir çox ölkələrində üstünlük təşkil edən də təxminən bu xəstəliklərdir.

Azərbaycan vətəndaşının sağlamlığının qorunması dövlətin qarşıya qoyduğu ən mühüm vəzifələrdən biridir. Təsadüfi deyil ki, son illər əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi xeyli yüksəlib, müayinələrin sayı artıb, xəstələrin dərmanla təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır. Ölkədə yeni müasir müalicə ocaqları inşa edilib və əvvəlkindən yenidən qurulub.

Dünyada analoqu olmayan faktdır ki, ölkə Prezidenti hər bir vətəndaşın səhhətinin, sağlamlığının qeydinə qalır. Dövlət başçısının tapşırığı ilə hər il bütün əhalinin aylıq tibbi müayinələri keçirilir.Pandemiya başlayandan ölkə əhalisinin bu virusdan qorunması və müalicə olunması üçün görülən ardıcıl tədbirlərin isə şərhə ehtiyacı yoxdur. Dövlət başçısının bu barədə fikrini xatırlatmaq kifayətdir: "Pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır".

Müsbət hallardan biri də ana və uşaq ölümünün azalmasıdır. Bunu təsdiqləyən faktlar sırasında bir yaşadək uşaq ölümünün statistikası dayanır. 2019-cu ildə doğulan hər 10 min körpə hesabı ilə bu rəqəm 110,3 olub. Həmin vaxtdan 10 il əvvəl - 2009-cu ildə 113,3 və bundan da 10 il qabaq - 1999-cu ildə 165,3 idi.

Ölkədə anaların və uşaqların sağlamlığının qorunması işinin dövlət siyasətinin ən prioritet istiqamətlərindən olduğunu göstərən "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu, "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair", "Ana və uşaqların sağlamlığının qorunması üzrə" dövlət proqramları qəbul edilib. Bu sənədlər uşaqlar arasında xəstələnmənin, sağlamlıq imkanlarının və ölümün səviyyəsinin azaldılmasına, perinatal yardım islahatlarının davam etdirilməsinə, gənclərə göstərilən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin yaxşılaşdırılmasına yönəldilib.

Uşaqların sağlamlığından, uşaq ölümünün azalmasından söz düşərkən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələrin əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Bunlar "Talassemiyasız həyat naminə", "Diabetli uşaqlara yardım" layihələri, müxtəlif xəstəliklərdən əziyyət çəkən, eləcə də daun sindromlu körpələrə göstərilən qayğıları əhatə edir.

Ölüm hallarının azalmasına əlbəttə ki, ölkədə qida məhsullarının keyfiyyətinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşması, yol-nəqliyyat hadisələrinin azalması, insanlar üçün yaradılan rahat məişət şəraiti və s. amillər də təsir göstərir.

Bütün deyilənlərlə yanaşı, insanı yaşadan digər amillər də var. Kiminsə dərdinə şərik çıxmaq, ən çətin məqamlarda ona lazım olan dəstəyi göstərmək insanı stressdən, dərd-qəm çəkməkdən, xəstələnməkdən qoruyan şərtlərdir. Çətin gündə bir yerdə olmaq, bir-birinin dərdinə şərik çıxmaq, xoş hadisələr baş verəndə sevinci bölüşmək isə xalqımızın övladlarına məxsus ən ümdə xüsusiyyətlərdir.

Ağsaqqala, ağbirçəyə qayğı göstərmək Azərbaycan ailəsinin mənəvi dəyərlərindəndir. Bizlər yaşa dolmuş doğmalarımıza qayğı göstərməyi təkcə borc saymırıq, həm də bundan məmnunluq duyur, zövq alırıq. Belə dəyərlərə bəlkə də dünyanın başqa bir ölkəsində, başqa bir xalqın övladlarında rast gəlmək çətindir. Bunlar insanı qoruyan, onun ömrünü uzadan mənəvi dəyərlər - mühüm amillərdir.

Bütün bu maddi və mənəvi dəyərlərdən, Azərbaycan dövlətinin öz vətəndaşı üçün yaratdığı şəraitdən hər birimiz lazımınca bəhrələnsək, əlbəttə ki, ölkəmizdə ölümün səviyyəsi bir az da aşağı düşər.

### Boşanmalar azalıb!

Nəhayət, boşanmalar haqqında. Onların sayı azalıb! Keçən il ölkədə 14 min 628 boşanma qeydə alınıb. Ondan əvvəlki 2019-cu ildə boşanmaların sayı 17 min 148 idi. Deməli, bir il ərzində azalma 2520 boşanmadan ibarətdir. Hər 1000 nəfərə hesabı ilə boşanmanın əmsalı da 1,7-dən 1,5-ə düşüb. Müsbət haldır ki, bu ilin ilk üç ayında da boşanmalar keçən ilin eyni dövrünə nisbətən azalıb. Əgər 2020-ci ilin birinci rübündə onların sayı 3823 idisə, 2021-ci ilin eyni vaxtında azalaraq 3704-ə enib.

Artıq koronavirus da geri çəkilməyə başlayıb. Operativ Qərargah müəyyən şərtlərlə toy məclislərinin keçirilməsinə icazə verib. Valideynlər intizardan qurtarıb tezliklə övladlarına toy çaldıracaqlar. Nişanlılar bir-birinə qovuşacaq. Yeni ailələr qurulacaq, evlərdən neçə-neçə körpənin səsi gələcək. Biz həmişə olacağıq, artacağıq!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Təkcə təbiət üçün deyil, özümüz üçün də faydalı qadağa

## Bu gündən Azərbaycanda plastik qabların istehsalına və satışına icazə verilmir



**Plastik qaşıq, bıçaq, qarışdırıcı çubuq, boşqab və stəkanlardan istifadə son onilliklərin trendidir. Bu əşyalar məişətimizə təxminən 20-30 il əvvəl daxil olmağa başlayıb. Ona qədər isə bunların yerini ekoloji baxımdan daha sağlam olan qablar tuturdu.**

Məsələn, sovet dövründə küçələrdəki avtomat köşklərdə su plastik qablarda deyil, şüşə qablarda təqdim edilərdi. Bazarlıq üçün istifadə edilən torbalar da polietilen olmazdı, həsir zənbillər, kağız və ya parça torbalar götürülərdi. Vitrinlərə düzülmüş ərzaq malları alıcılara yalnız kağız torbalarda təqdim edilər, plastik qablarda qablaşdırılmış məhsullara rast gəlinməzdi. Restoranlardan yeməklər plastik qablarda deyil, əsl çini, şüşə qablarda təqdim edilərdi.

İlk baxışdan məişət həyatımıza daxil olan bu dəyişikliklər çox adi və səmərəli görünür. "İstifadə etdiyimiz birdəfəlik qablar daha gigiyenikdir, bir dəfə istifadə edildikdən sonra atılır, bunun nəyi pisdir ki?" deyənlər də var. Amma ilk baxışdan dərinliyinə varmadığımız əsl problem də bundan sonra başlayır...

Torpağa qatılan polietilen tullantılar orada təbii yolla çürüyüb parçalana bilmədiyi üçün uzun müddət tullantı kimi qalır, uzun illər ərzində çürümür və sonda ətraf mühiti çirkləndirir. Tullantıların ildən-ilə artması hesabına torpaq qatı, su hövzələri getdikcə daha çox çirklənməyə məruz qalır. Bundan əlavə, Günəş şüalarının təsirindən plastik tullantıların təbiətə buraxdığı uçucu toksiki maddələr atmosferə çirkləndirici təsir göstərir.

Qablaşdırma məmulatlarının ekologiya ilə yanaşı, qida məhsullarının keyfiyyətinə də mənfi təsiri böyükdür. Belə ki, qablaşdırma materialları qida məhsulları ilə uzun müddət bilavasitə təmasda olduğu üçün onlardan qidanın tərkibinə zərərli maddələrin keçidi baş verir. Zərərli maddələrin qidaya keçid sürəti onun temperaturundan asılı olaraq dəyişir. Qidanın temperaturu artdıqca toksiki maddələrin təsiri daha da sürətlənir. İsti yay günlərində isə bu sürət daha da artır.

Elmi araşdırmalar nəticəsində sintetik xammaldan istifadə etməklə hazırlanan qablaşdırma məhsullarından qidaya toksiki maddələrin keçdiyi öz təsdiqini tapıb. Məlum olub ki, qablaşdırma materiallarından qidanın tərkibinə keçən maddələr ftalatlar, "Bisfenol A", vinilxlorid, formaldehid, ağır metallar və sairədir. Bu maddələrin hətta çox az səviyyəli qatılıqları insan orqanizminə mənfi təsir göstərə bilər. Belə ki, formaldehid, "Bisfenol A", ftalatlar insanda daxili sekresiya vəzlərinin fəaliyyətində və endokrin sistemdə bir sıra pozuntuların yaranmasına, sinir sisteminə kəskin toksiki təsir göstərməsinə, eləcə də xərçəng riskinin artmasına gətirib çıxarır.

Bütün bu zərərli təsirlərə baxmayaraq, plastik qablaşdırma vasitələrinin istehsalının ucuz başa gəlməsi, asanlıqla təkrar emal edilməsi, geniş spektrdə və fərqli formalarda tətbiq edilə bilməsi onların sürətlə yayılmasına yol açır. Hazırda dünyada plastik qablaşdırma materiallarının istehsalı milyard tonlarla ölçülür. İqtisadiyyatın inkişaf tempinin nəticəsi olaraq bu gün təbiətə zərər verən tullantıların ən böyük hissəsi də məhz plastik kütlələrin payına düşür. Bu səbəbdən tullantıların düzgün idarə edilməsi, zərərli atılmaların tədricən azaldılaraq dayandırılması dünya ölkələri üçün ən vacib məsələlərdəndir.

Artıq plastik məmulatlardan tədricən imtina prosesinə başlanılıb. Avropa ölkələrində bu ildən etibarən birdəfəlik plastik əşyalardan istifadənin tam qadağan edilməsi qarşıya hədəf qoyulub. Dünyanın 40-dan çox ölkəsində isə plastik məhsulların istifadəsi tam məhdudlaşdırılıb.

Azərbaycanda da plastik məhsulların istifadəsi ilə bağlı artıq müəyyən tədbirlərin həyata keçirilməsinə başlanılıb. "Ətraf mühitin mühafizəsi haqqında" qanuna ötən il edilən dəyişiklik əsasında bu il yanvarın 1-dən Azərbaycanda qalınlığı 15 mikrona qədər olan polietilen torbaların istehsalına və satışına qadağa qoyulub. Qanundakı digər qadağa isə iyulun 1-dən qüvvəyə minir. Bu gündən etibarən birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik çəngəl, qaşıq, bıçaq, qarışdırıcı çubuq, boşqab və stəkanların idxalına, istehsalına, onların ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılmasına və ya xidmət zamanı istifadəsinə icazə verilmir.

Qanunvericiliyin tələblərinə riayət edilməsinə nəzarət məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən hazırlanmış müvafiq Tədbirlər Planına uyğun olaraq, nəzarət tədbirlərinin həyata keçirilməsi təmin ediləcək. Qanunvericiliyin tələblərinə riayət olunmamasına görə ciddi məsuliyyət tədbirləri nəzərdə tutulur. Bu cür hərəkətlərə görə inzibati xətanın predmeti olan plastik materiallar müsadirə edilməklə, vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək, hüquqi şəxslər 3000 manatdan 4000 manatadək cərimə ediləcək.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyevin fikrincə, birdəfəlik qabların, polietilen torbaların satışının, istehsalının qadağan edilməsi dünyada ekologiyanın qorunması üçün tətbiq olunan ən yaxşı təcrübədir: "Bir çox dünya ölkələri ekologiyanı qorumaq üçün polietilen torbaların, birdəfəlik plastik qabların istehsalının, satışının qadağan olunması və ya məhdudlaşdırılması ilə bağlı qanunvericiliyə dəyişiklik ediblər. Azərbaycanda da artıq belə bir qanunvericilik bazası yaradılıb ki, bu da, ilk növbədə, ekologiyanın, təbiətin, insan sağlamlığının qorunmasına xidmət edir".

Musa Quliyev bu qadağanın tətbiqinin bazara ciddi təsirinin olmayacağı qənaətindədir. Onun sözlərinə görə, bazarda birdəfəlik qabların yerini tuta biləcək alternativ məhsullar var: "Bu qadağanın tətbiqi ilə əlaqədar ilkin dövrdə bazarda hər hansı boşluğun müşahidə ediləcəyi qənaətində deyiləm. Çünki qanundakı bu qadağalar qüvvəyə minənədək istehsalçılara buna hazırlıq üçün kifayət qədər vaxt verilmişdi. Artıq xeyli müddətdir ki, həm istehsalçılar, həm də istehlakçılar bu qadağanın tətbiq ediləcəyini bilirdilər. Bundan sonra plastik qab istehsal edənlər ekoloji baxımdan təmiz olan başqa məhsulların istehsalına üstünlük verəcəklər. Vətəndaşlarımız artıq plastik qabların alternativlərinin nə olacağını öyrəniblər. İstehlakçılar polietilen torbaların əvəzinə bazar zənbillərindən istifadə etməklə iqtisadi cəhətdən büdcələrini qorumuş olacaqlar. Digər tərəfdən, həm polietilen torbalardan, həm də birdəfəlik qablardan istifadə insanların sağlamlığının qorunması üçün xeyirdir. Bu qadağanın tətbiqinin insan sağlamlığına da müsbət təsiri var. Birdəlik plastik qablar çox zaman isti şəraitdə, isti qidaların qablaşdırılması zamanı istifadə edilirdi. Bu da orqanizmə mənfi, hətta zəhərləyici təsir göstərirdi. Belə qabların əvəzinə daha təhlükəsiz qablar istifadə ediləcək. Bu keçid bir çox dünya ölkələri üçün yeni olmasa da, Azərbaycan üçün yenidir. Gərəkdir ki, vətəndaşlarımız bu yeniliyin mahiyyətini öyrənsinlər və onu tətbiq etsinlər".

Dünya ölkələrinin təbiətə vurulan zərərin qarşısını almaq və insan sağlamlığının qorunması məqsədilə plastik qablaşdırma məmulatlarının istehsalı və satışından imtina təcrübəsinin Azərbaycanda da tətbiqi təqdirəlayiqdir. Ümid edirik ki, həm Azərbaycan istehsalçısı, həm də istehlakçısı bu qərara anlayışla yanaşaraq, onun müsbət tərəflərini dəyərləndirəcək, təbii xammaldan - şüşə, keramika, kağız və s. hazırlanmış qablardan istifadə etməklə ölkəmizdə plastik tullantıların məhdudlaşdırılmasına töhfə verəcəklər.

Hər birimiz həm özümüzün, həm də təbiətin qeydinə qalaraq, polietilen torbalar əvəzinə parça, kağız torbalar və həsir çantalardan, birdəfəlik plastik qabların əvəzinə isə kağız, şüşə, metal alternativlərdən istifadə edə bilərik. Bunun sonda yalnız ətraf mühitin deyil, bizim də sağlamlığımızın qorunmasına müsbət təsiri olacaq.

***İlhamə İSABALAYEVA ,***
***"Azərbaycan"***

## bp Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafında dayazsulu sahənin (AYDS) kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin operatoru kimi elan edir ki, saziş üzrə iş proqramı çərçivəsində AYDS-nin kəşfiyyat qazma fəaliyyətləri (ikinci quyu) üçün Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihəsi podratçı tərəflər adından hazırlanıb və dərc edilib

ƏMSSTQ sənədi AYDS müqaviləsinin kəşfiyyat qazma mərhələsi üçün hazırlanıb. Bu sənəddə kəşfiyyat qazma fəaliyyətlərinin ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirləri nəzərdən keçirilir və tövsiyə edilən təsirazaltma tədbirləri təsvir edilir. ƏMSSTQ prosesinin məqsədi nəzərdə tutulan işlərin ətraf mühitə və sosial-iqtisadi sahəyə hər hansı mənfi təsirlərinin müəyyənləşdirilməsini və minimuma endirilməsini, mümkün olduqda isə aradan qaldırılmasını təmin etməkdir.

